**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA DİNİ QURUMLARIN MÜLKİ-HÜQUQİ STATUSUNUN PROBLEMLƏRİ

İxtisas: 5608.01–"mülki hüquq; sahibkarlıq hüququ; ailə hüququ; beynəlxalq xüsusi hüquq"

Elm sahəsi: hüquq elmləri

İddiaçı: **Simran Seyfəddin oğlu Həsənov**

Hüquq üzrə elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2023**

Dissertasiya işi AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Mülki hüquq, mülki proses və sosial-iqtisadi hüquq" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçisi: hüquq elmləri doktoru, professor
**Habil Surxay oğlu Qurbanov**

Rəsmi opponentlər: hüquq elmləri doktoru, professor
**Əmir İbrahim oğlu Əliyev**

Ph.D, professor
**Muzaffer Şeker Ziya**

Ph.D, professor
**Abdulkerim Yıldırım**

hüquq elmləri doktoru,
**Kamal Namiq oğlu Makili-Əliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən BED 2.45 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri:
____________ hüquq elmləri doktoru, professor
**Ayxan Xankişi oğlu Rüstəmzadə**

Dissertasiya şurasının elmi katibi:
____________ hüquq elmləri üzrə fəlsəfə doktoru
**Sahil Zahir oğlu Hüseynov**

Elmi seminarın sədri:
____________ hüquq elmləri doktoru, professor
**Məhəbbət Dəyirman qızı Dəmirçiyeva**

# I.İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

***Mövzunun aktuallığı və işlənmə dərəcəsi.*** Azərbaycan ikinci dəfə öz müstəqilliyini bəyan etdikdən sonra cəmiyyət həyatının bütün sahələrində olduğu kimi insanların böyük əksəriyyətinin mənəvi həyatında aparıcı yerlərdən birini tutan dini etiqadla da bağlı tamamilə yeni ictimai münasibətlər sisteminin formalaşması prosesi start götürdü. Bu dəyişikliklər dini etiqad və vicdan azadlığı ilə bağlı bütün çoxşaxəli istiqamətləri, o cümlədən, bu azadlığın "korporativ" ünsürlərini, birgə ibadətin hüquqi təminatı olan dini təşkilatların instutualizasiyasını, strukturlaşma elementlərini də əhatə edirdi. Dinə, onun əsasında yaranan təşkilati qurumlara ictimai-siyasi müstəvidə baxışlar ciddi yeniləşmələrə məruz qaldı.

Hal-hazırda müxtəlif konfessiyalara mənsub 1000-ə yaxın dini qurum dövlət qeydiyyatından keçərək hüquqi şəxs statusunu almışlar[1]. (Nəzərə almaq lazımdır ki, ötən əsrin 80-ci illərinin axırlarında Azərbaycanda dini təşkilatların sayı cəmi 17 idi və onlar hətta mülki hüquq münasibətlərinin tam hüquqlu subyekti də sayılmırdılar). Onlar hüquq subyektləri kimi müxtəlif məzmunlu mülki-hüquqi əqdlər bağlayır, mülki öhdəliklər götürür, daşınar və daşınmaz əmlaka sahib olur, məhkəmələrdə iddiaçı və cavabdeh qismində çıxış edir, digər hüquqi hərəkətlər edirlər. Lakin, mülki dövriyyənin yeni iştirakçıları kimi dini təşkilatların hüquqtətbiq prosesində, təbiidir ki, bir sıra problemləri də ortaya çıxır. Bu cür halların araşdırılması isə bəzi obyektiv və subyektiv səbəblərə görə hələ arzu olunan səviyyədə deyildir. İstər sovet dönəmində, istərsə də ölkəmiz müstəqillik əldə etdikdən sonra milli hüquq elmimiz tərəfindən dini təş-

---

[1]Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi saytı: [Elektron resurs]. URL: http://www.dqdk.gov .az/az/view/pages/306?menu_id=83

kilatların mülki-hüquqi statusu ilə bağlı elmi-tədqiqat işləri demək olar ki, aparılmamışdır.

Dini qurumların mülki-hüquqi statusunun elmi-nəzəri konsepsiyasının işlənməsi demokratik vətəndaş cəmiyyətinin formalaşmasının elmi nəzəri təminatı baxımından, eyni zamanda tədqiqat işinin aktuallığını şərtləndirən aşağıdakı amillərə görə faydalı görünür:

1.Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin II bəndində dini etiqad azadlığının gerçəkləşdirilməsinin əsas formalarından biri kimi *"dinə... başqaları ilə birlikdə etiqad etmək"* ünsürü önə çəkilir[2]. Buna isə bir çox hallarda məhz dini təşkilatların yaradılması nəticəsində nail olmaq daha asan və faydalıdır. Digər tərəfdən bu gün ölkəmizin ictimai, mədəni və sosial həyatında bu qurumlar əhəmiyyətli rol oynayırlar. Azərbaycanın əsas nailiyyətlərindən biri hesab edilən multikulturalizmin və dini tolerantlığın təmin edilməsində bu təşkilatların xidmətləri əvəzolunmazdır. Bu cür önəmli mövqedən çıxış edən dini qurumlar təbiidir ki mülki dövriyyənin də fəal iştirakçısı olmağa məcburdurlar. Lakin, bu qurumların məhz mülki hüquq subyekti kimi hüquqi vəziyyətlərini müəyyən edən normativ hüquqi aktların, onların hüquqtətbiq təcrübəsinin elmi-nəzəri nöqteyi-nəzərdən öyrənilməsi, bu sənədlərə peşəkar baxımdan qiymət verilməsi vəziyyətinin qənaətbəxş olduğunu söyləmək düzgün olmazdı. Bu, həmin təşkilatların daha səmərəli fəaliyyətlərinin hüquqi təminatına mane ola bilər.

2. Son bir neçə onillik ərzində dini qurumların maliyyə-təsərrüfat vəziyyəti də əhəmiyyətli dərəcədə möhkəmlənmişdir. Sovet rejiminin müsadirə etdiyi əmlakın qaytarılması, dövlətin

---

[2]Azərbaycan Respublikasının Konstitusiyası // 12.11.1995-ci ildə qəbul edilmişdir. (*Tədqiqat işində istifadə və istinad edilmiş Azərbaycan Respublikasının normativ-hüquqi aktları Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin normativ hüquqi aktların vahid internet elektron bazasından (http://e-qanun.az) götürülmüşdür).*

birbaşa dəstəyi, özlərinin təsərrüfat fəaliyyəti, ianələr və xeyriyyəçilik və digər mənbələr hesabına onların mülkiyyətində kifayət qədər iri həcmdə daşınar və daşınmaz əmlak toplanmışdır. Paralel olaraq bu əmlak üzərində mülkiyyət hüququnun yaranması, ondan istifadə və həmin əmlaka sərəncam verilməsi ilə bağlı qanunvericilik bazasının formalaşması və təkmilləşdirilməsi də davam etmişdir. Lakin Dini etiqad və vicdan azadlığı, dini təşkilatların konstitusion və beynəlxalq hüquqi statusu, müvafiq sahədə hüquq pozuntuları ilə bağlı kifayət qədər elmi araşdırmalar aparılsa da, dini qurumların mülki-hüquqi vəziyyətinə həsr edilmiş sanballı tədqiqat işlərinə demək olar ki, rast gəlinmir.

3. Nəzərə almaq lazımdır ki, dinlərin və dini birliklərin tarixi çox zəngindir və az qala elə bəşəriyyətin tarixi qədər qədimdir. (Qədim Romanın dünyada hüquqi şəxs tipli ilk birləşmələri hesab

edilən qurumları arasında dini cəmiyyətlər *(sodalitates-lər)* də var idi[3]). Dini təşkilatların mülki-hüquqi fenomen kimi elmi baxımdan, tarixi inkişaf aspektində araşdırılmasının, bu gün mövcud olan dini birləşmələrin fəaliyyətinə, habelə onların normativ hüquqi bazasının təkmilləşdirilməsinə birbaşa təsir edəcəyini əminliklə söyləmək olar. Nəzərə almaq lazımdır ki, Sovet dönəmində davakar ateizmə söykənən rəsmi kommunist ideologiyası dini etiqad və vicdan azadlığının faktiki həyata keçirilməsinə hər cür maneələr törədirdi. Dövlətin dinə mürtəce münasibəti nəticəsində dini qurumların fəaliyyəti iflic vəziyyətinə düşmüşdü. Belə bir vəziyyətdə onların hüquqi vəziyyətinin

---

[3] Римское частное право: учебник / под ред. проф. И.Б.Новицкого и И.С.Перетерского. Москва: Юрист, 2002 - 540 с. с.115; Корпоративное право: учебный курс / отв. ред. проф. И.С.Шиткина. Москва: КноРус, 2001 - 1072 с.;с.15; Бартощек Милан. Римское право- понятия, термины, определения /М.Бартошек – Москва: Юридическая литература, 1989, 496 с.с.298; Simran Həsənov. Korporativ hüquq. Dərslik / Bakı: - "Elm və təhsil", - 2018. - 330 s., s.41.

tarixi baxımdan elmi-nəzəri tədqiqi də, təbii ki, məlum ideoloji ştamplara uyğun olaraq aparılmış və bugünkü çağırışlar baxımından xeyli dərəcədə yararsızdır. Bu da yeni yanaşmalar konteksində və müasir metodoloji əsaslarla araşdırmaları qaçılmaz edir.

4.”Dini etiqad azadlığı haqqında Qanunun” (DEAHQ-nun)[4] qəbul edildiyi vaxtdan (20.08.1992-ci il) ötən müddət ərzində, ölkə həyatının bütün sahələrində olduğu kimi dini etiqad azadlığının təmin olunmasının hüquqi tənzimlənməsi istiqamətində də əhəmiyyətli müsbət dəyişikliklər baş vermiş, bu sahədə dövlət siyasətinin əsasları təkmilləşdirilmişdir. Bu prosesə, əsas insan hüquq və azadlıqlarının təsbit olunduğu yeni Konstitusiyanın ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi, Azərbaycan Respublikasının *(AR)*, vicdan azadlığı ilə bağlı müddəaları da özündə əks etdirən bir çox beynəlxalq konvensiyalara qoşulması, DQİDK-nin yaradılması amilləri də öz pozitiv təsirini göstərmişdir.

Dini etiqad azadlığı ilə bağlı ictimai münasibətlər sahəsinin dinamik inkişafı və DEAHQ-un tənzimlədiyi münasibətlərin ciddi kəmiyyət və keyfiyyət dəyişikliyinə məruz qalması onun qəbul edilməsindən sonra həmin akta dini qurumların mülki-hüquqi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir edən çoxsaylı əlavə və dəyişikliklərin olunmasını zəruri etmiş, bu da öz növbəsində ictimai həyatın dinlə bağlı bir çox yeni sahələrinin bu Qanunun hüquqi tənzimləmə predmetinə daxil olmasına, bəzi sahələrin isə, əksinə, oranı tərk etməsinə gətirib çıxarmışdır. Hər dəfə yeni normaların qəbul edilməsi isə, təbiidir ki, bəzi hüquqtətbiq problemlərinin ortaya çıxmasını qaçılmaz edir. Bu cür vəziyyətdə müvafiq sahədə elmi-praktik araşdırmaların aparılması həmin çətinliklərin qarşısını almağa kömək edə bilər. Belə araşdırmaların nəticəsi olan bu tədqiqat işi Qanunun

[4]“Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanunu//20.08.1992-ci ildə qəbul edilmişdir

uğurlu tətbiq prosesinə, qənaətimizə görə müsbət təsir göstərməlidir.

5. Dini qurumların mülki-hüquqi statusunun araşdırılması həm də ona görə dəyərlidir ki, bununla bağlı “əsas qanun” olan DEAHQ mətnində digər normativ hüquqi aktlara çoxsaylı göndərici və blanket normalar yer almışdır. Bu da dini etiqad azadlığı ilə bağlı hüquq münasibətlərinin sistemli və kompleks xarakterindən, habelə onların bir neçə hüquq sahəsinə, o cümlədən, konstitusiya hüququ, mülki, inzibati, beynəlxalq və digər hüquq sahələrinə aid olan normalarla tənzimlənməsi zərurətindən irəli gəlir. Dini qurumların yaradılması, fəaliyyəti və fəaliyyətə xitam verilməsi prosesində onlar təkcə mülki hüquq münasibətlərinin deyil, həmçinin konstitusiya, əmək, inzibati və digər hüquq sahələrinin subyekti qismində çıxış edir. Bu qurumların müxtəlif hüquq sahələri baxımından özünəməxsus cəhətlərini sistemli şəkildə araşdırmadan onların mülki hüququn subyekti kimi portret-statusunu təqdim etmək çətin olardı. Bu cür təhlil həm də ona görə önəmlidir ki adı çəkilən hüquq sahələrinin dini təşkilatlarla bağlı olan normaları bəzən bir-birinə zidd xarakter daşıyır.

6. Hüquqi şəxslərin fəaliyyətində daxili (lokal) sənədlərin, xüsusilə onların “konstitusiyası” hesab edilən nizamnamələrin əvəzsiz rolu vardır. Mülki hüquq normalarına görə hüquq subyektləri bu sənədlər vasitəsi ilə qanunvericiliyə zidd olmayan istənilən məsələni tənzimləyə bilərlər. Hətta səthi baxış da göstərir ki, dini qurumların yaradılması, fəaliyyəti, idarə olunması və onların fəaliyyətinə xitam verilməsi ilə bağlı yaranan münasibətlərin tənzimlənməsinə “normativ müdaxilə” digər hüquqi şəxslərlə müqayisədə xeyli məhduddur. Bu da din-dövlət münasibətlərinin konstitusiya ilə müəyyən edilmiş xarakterindən irəli gəlir. Belə bir vəziyyətdə leqal nizamasalma prosedurlarından kənarda qalan məsələlər daha çox dini qurumların lokal sənədlərinin və daxili qaydalarının (şəriət, kanonik və s.)

normativ təsirinə məruz qalırlar. Bu sənədlər isə idarədaxili xarakter daşıdığı üçün geniş ictimai baxışdan kənarda qalır və bu baxımdan onların tədqiqi faydalı və zəruridir.

7. Geosiyasi baxımdan əhəmiyyətli bir regionda yerləşən Azərbaycanın müstəqil siyasət yürütməsi, əhəmiyyətli iqtisadi nailiyyətlər əldə etməsi təbii ki, bir çox qüvvələrin ürəyincə deyildir və onlar hər bir vəchlə Azərbaycanda təxribatlar törətməyə can atırlar. Bu cür çirkin niyyətləri reallaşdırmaq üçün ən əlverişli üsul xarici ölkələrdə sınaqdan "üzüağ" çıxmış dini zəmində qarşıdurma yaratmaqdır. Azərbaycanın dini, konfessional və məzhəb mənzərəsinin rəngarəngliyi, belə təxribatlar üçün münbit mühit yarada bilər. Bu cür halların qarşısının alınması və preventiv tədbirlərin görülməsi üçün dövlətin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən biri də müvafiq sahədə qanunvericiliyin təkmilləşdirilməsi və pozuntulara görə məsuliyyətin gücləndirilməsindən ibarətdir. Bu isə öz növbəsində dini qurumların hüquqi vəziyyətinin mütəmadi olaraq nəzəri cəhətdən araşdırılması və müvafiq təkliflər hazırlanması əsasında mümkündür. Digər tərəfdən göstərilən hallar dini təşkilatların hüquqi vəziyyətinə diqqət ayırmağı, onların mülki-hüquq qabiliyyəti, əmlakının formalaşması mənbələri ilə bağlı məsələləri müşahidə altında saxlamağı qaçılmaz edir. Bu baxımdan həmin hüquq subyektləri ilə bağlı elmi araşdırmalara da ehtiyac yaradır.

8.Publik hüququn subyekti olan dövlətlə, mülki hüququn subyekti qismində çıxış edən dini qurumlar arasındakı hüquqi münasibətlər də, xüsusən bu münasibətlərin sonuncuların mülki-hüquqi vəziyyətinə təsiri sonadək tədqiq edilməmiş və qiymətləndirilməmişdir. Bu da dini təşkilatların hüquqi və dünyəvi dövlət mühitində mövcudolma şərtlərini dəyərləndirmək imkanlarını məhdudlaşdırır.

9. Dünyanın əksər ölkələrində dini təşkilatların ictimai-siyasi və iqtisadi həyatdakı rolu və funksiyaları əhəmiyyətli dərə-

cədə artmaqdadır. Bəzi ölkələrdə dini təşkilatların ən böyük işə götürənlərdən olduqlarını qeyd edən müəlliflər Kilsənin *bir çox sahələrdə, o cümlədən təhsil, mədəniyyət, sosial yardımlaşma və digər sferalarda dövlətdən sonra ikinci bir güc olduğunu etiraf edirlər*[5]. Həmin ölkələrin qanunvericilik təcrübəsinin analoji milli normativ hüquqi aktlarımızla müqayisəli təhlili mövcud sahədə təkmilləşdirmə işlərinin aparılmasına yardımçı ola bilər və dini qurumların mülki-hüquqi vəziyyətinin qarşılıqlı tutuşdurulmasını həyata keçirməyə imkan verə bilər.

Qeyd olunduğu kimi Sovet hakimiyyəti illərində Azərbaycanın da yer aldığı SSRİ-də ateizm rəsmi dövlət ideologiyasının tərkib elementi qismində bütün səviyyələrdə dəstəklənirdi. Dinə aid ***hüquqi problemərin işlənməsi də*** məhz bu prizmadan həyata keçirilirdi. Uzun müddət hüquqi şəxs statusuna malik olmadıqları üçün həmin dövrdə dini qurumların bilavasitə mülki-hüquqi vəziyyətinin öyrənilməsinə isə demək olar ki, çox cüzi diqqət ayrılırdı. Sovet hakimiyyəti illərində dini qurumlarla bağlı elmi-nəzəri tədqiqatlar daha çox məlum ideoloji və siyasi müstəvidə dinşünaslıq, psixologiya, sosiologiya və digər oxşar elm sahələrində aparılırdı.

SSRİ-nin süqutundan sonra da, yəni ötən əsrin sonu, bu əsrin əvvəlləri ölkəmizdə bütövlükdə hüquq ədəbiyyatının, o cümlədən elmi hüquq ədəbiyyatının nəşri sahəsində ciddi canlanma hiss olunsa da, qeyd etmək lazımdır ki, dini təşkilatların təşkilinin və fəaliyyətinin hüquqi tənzimlənməsi problemlərinin milli hüquq ədəbiyyatında elmi cəhətdən araşdırılması vəziyyətini qənaətbəxş hesab etmək düzgün olmazdı. Bu da sırf obyektiv səbəblərlə bağlıdır. Belə ki, ilk növbədə nəzərə almaq lazımdır ki, dini etiqad azadlığı və dini qurumları hüquqi vəziyyətini müəyyən edən normativ sənədin-DEAHQ-un (20.08.1992-ci ildə qəbul edilmişdir) və bütün hüquqi şəxslər,

---

[5]Recai Doğan. Avropa Birliyi prosesində dini qurumlar və din təhsili // - Ankara: Ankara Universiteti dərgisi, - 2008, №11, s.35-43

o cümlədən dini qurumlara da aid edilən əsas normaları özündə əks etdirən Azərbaycan Respublikası Mülki Məcəlləsinin (MM-in) (01.01.2000-ci ildə qüvvəyə minmişdir)[6] qəbulundan tarix üçün nisbətən qısa hesab edilə biləcək bir müddət keçir. (Hər iki sənədə sonradan yüzlərlə dəyişikliklər edilmişdir). Belə qısa dövr ərzində dini qurumlar haqqında fundamental elmi araşdırmaların ortaya çıxmasını gözləmək sadəlövhlük olardı. Ümumiyyətlə, din və dini təşkilatlarla bağlı hüquqi araşdırmaların məhdudluğu bir rus mütəxəssisinin haqlı olaraq söylədiyi kimi həm də onların məqsədlərinin "*iqtisadi və siyasi sferaya deyil, insanın mənəvi və mədəni maraqlarına toxunması*" ilə bağlıdır[7].

Bununla belə qeyd etmək lazımdır ki, «Azərbaycan Respublikası Mülki Məcəlləsinin Kommentariyası» (I cild), "Azərbaycan Respublikası Mülki Məcəlləsinin elmi-praktik kommentariyası" (I cild), "Mülki hüquq" dərsliklərində qeyri-kommersiya hüquqi şəxslərinin, o cümlədən dini təşkilatların mülki-hüquqi vəziyyəti həmin nəşrlərin qarşılarına qoyduqları ümumi məqsədlər çərçivəsində araşdırılmışdır[8]. Yalnız dini təşkilatların, o cümlədən dini təhsil müəssisələrinin mülki-hüquqi statusunun problemlərini də özündə ehtiva edən, az-çox geniş əhatəli nəşrlər hesab edilə biləcək «Dini etiqad azadlığı haqqında» AR Qanununun kommentariyası" və "Din təhsili və

---

[6]Azərbaycan Respublikasının Mülki Məcəlləsi // Azərbaycan Respublikasının 28.12.1999-cu il tarixli Qanunu ilə təsdiq edilmişdir.

[7]Валявина Е.Ю. Религиозная организация как субъект гражданского права: / дис. кандидата юридических наук: / -Санкт Петербург, 2004. -254 с.с.9

[8]Əsədov B.H. Azərbaycan Respublikası Mülki Məcəlləsinin Kommentariyası: I kitab, / Bakı: Qanun, 2004, 528 s.; "Azərbaycan Respublikası Mülki Məcəlləsinin elmi-praktik kommentariyası" (I cild) / red.B.H.Əsədov. Bakı: Hüquq yayın evi. -2017. -896 s.; Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüququ:dərslik- / Bakı: Digesta, 2001, 976 s.; Mehdiyev Y.Ə. Mülki hüquq: dərslik/ Bakı: Qanun, 2004, -389 s.

dini təhsil müəssisələri-hüquqi aspektlər" kitabları isə bu dissertasiya müəllifi tərəfindən müvafiq olaraq 2014-cü və 2016-cı illərdə dərc edilmişdir[9].

Ölkəmizin müstəqilliyi dövründə həyata keçirilmiş bəzi elmi araşdırmalarda dolayısı ilə dini qurumların da geniş mənada (konstitusion, mülki, cinayət, inzibati, beynəlxalq və s. hüquq sahələri baxımından) hüquqi vəziyyətinə dolayısı ilə də olsa toxunulmuşdur.[10]

Bütün irili-xırdalı fərqlərlə yanaşı, AR ilə Rusiya Federasiyasının dini etiqad azadlığı haqqında qanunvericilik aktları arasında prinsipial məqamlarda xeyli oxşar cəhətlər də var. Buna görə də dini qurumların mülki-hüquqi vəziyyəti ilə bağlı rus sivilistlərinin apardıqları tədqiqat işlərinə bu araşdırmanın gedişində dəfələrlə istinad edilir. Son onilliklər ərzində burada di-

---

[9]Həsənov S.S. Din təhsili və dini təhsil müəssisələri (hüquqi aspektlər) /Bakı: "Elm və təhsil", 2016, -208 s.25; Həsənov S.S. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun kommentariyası / Bakı: "Elm və təhsil", 2014, -272 s..

[10]Bax:dissertasiyalar: Ələkbərova N.Ə. - "Din azadlığı: beynəlxalq standartlar və dövlətdaxili qanunvericilik müqayisəli təhlil", Əliyev İ.M. - "İslam hüququ və şəxsiyyətin huquqauyğun davranişinin formalaşması", Qəniyev F.Ə. "Dinlə bağlı cinayət əməlləri ilə mübarizənin cinayət-hüquqi və kriminoloji problemləri" - Məmmədzadə A.Ə. - "İnsan və vətəndaşin vicdan azadliği sahəsində konstitusiya hüquqlarinin cinayət-hüquqi mühafizəsi problemləri"; Əliyeva M.H. "İslam hüququnda insan hüquqları"; monoqrafiyalar: A.Məmmədzadə-"Vicdan azadlığı. Mənbələr, yaranması, hüquqi mühafizəsi"; A.Mustafazadə və N.Cəfərli-"İslam hüququ-insan hüquqları konteksində"; N.Məmmədli-"Dövlət, din, cəmiyyət. Dövlət-din münasibətlərinin müqayisəli təhlili"; R.Məmmədov-"Azərbaycanda dini etiqad azadlığı və qanunvericiliyi"; A.Əhədov "Azərbaycanda din və dini təsisatlar"; G.İsmayılov "Azərbaycanda dini məsələ: təhdidlər və hədəflər"; Q.Cavadlı "İslam və bioetika". Adlarından da göründüyü kimi, bu araşdırmalar dini qurumların mülki-hüquqi statusu ilə bağlı ünsürləri özündə yalnız qismən əks etdirə bilər.

ni qurumların  mülki-hüquqi vəziyyətinə birbaşa aid olan xeyli dissertasiya işləri hazırlanıb və uğurla müdafiə edilmişdir[11].

Mövzunun elmi cəhətdən işlənməsi vəziyyətinə nəzər yetirərkən müvafiq sahəyə birbaşa və ya dolayısı ilə aid olan hüquqi araşdırmalar aparmış Q.F.Şerşenoviçin, S.N.Bratusun, Y.A.Suxanovun, O.A.Çerneqanın, Y.K.Tolstoyun, N.Doyenin, V.Durhamın, F.Kellenin, H.Heyninqin, M.Hillin, S.Lansenin, M.Minnerathın, M.Ariensin, H.Bermanın, K.Dramın, R. Kaymakcanın, M.Doğanın, N.Ekşinin, Ö.Eraslanın, S.Hasanın, A.Özgürün, Ö.Tufanın və digər xarici tədqiqatçıların müvafiq əsərləri də nəzərdən keçirilmişdir. İdeoloji yanaşmanın (stereotiplərin) və normativ hüquqi bazanın bütün müxtəlifliyinə baxmayaraq adları sadalanan müəlliflərin əsərləri beynəlxalq miqyasda dini qurumların hüquqi statusu haqqında qanunvericiliyin elmi araşdırılması işinə ciddi töhfədir.

---

[11]Bax: Аюшеева И.З. Гражданско-правовое положение религиозных организаций: / дис. кандидата юридических наук / - Екатеринбург, 2005. -205 с.; Тупикин, Р.В. Правовое регулирование отношений по поводу недвижимых имущественных объектов религиозного назначения в зарубежных странах (на примере государств Европы и Южной Америки): / дис. кандидата юридических наук / -Москва:, 2017, -211с.; Валявина, Е.Ю… ;  Овчинникова, Ю.С. Вещные права религиозных организаций Русской Православной Церкви в Российской Федерации: / дис. кандидата юридических наук / -Москва:, 2002. -190 с.; Осипова, Л. В. Правовой статус религиозных объединений как института гражданского общества в современной России: / автореферат дис. кандидата юридических наук / -Москва:, 2009. -28 с.; Лупарев, Г.П. Правовое регулирование деятельности религиозных организаций на территории СНГ: / автореферат дис. кандидата юридических наук / -Москва:, 1992. -30 с.; Подопригора, Р. А. Правовой статус религиозных объединений в Республике Казахстан: /автореферат дис. кандидата юридических наук / - Алматы, 1992. -28 с.; Куницын, И.А. Правовой статус религиозных объединений в современной России: особенности и актуальные проблемы: / дис. кандидата юридических наук / -Москва:, 2000. -196 с.

***Tədqiqat işinin əsas məqsədi*** AR-nın mülki qanunvericilik aktlarının və dini etiqad azadlığı ilə bağlı normativ hüquqi aktların, habelə beynəlxalq qanunvericiliyin, məhkəmə təcrübəsinin, dini qurumların praktiki fəaliyyətinin və müvafiq elmi-nəzəri görüşlərin hərtərəfli ümumiləşdirilməsi və təhlili əsasında dini qurumların ümumi anlayışının və mülki-hüquqi xüsusiyyətlərinin ətraflı xarakteristikasını verməklə, onların mülki hüquq subyekti kimi problemlərini kompleks şəkildə araşdırmaqdan, hüquq subyektliliyinin mahiyyətini tədqiq etməkdən, təşəkkül prosesinin əsas xüsusiyyətlərini müəyyən etməkdən, hüquqi tənzimləmə mexanizmini, bu cür hüquqi şəxs formalarından istifadə vəziyyətini daha da yaxşılaşdırma yollarını axtarmaqdan, müvafiq qanunvericilik bazasının daha da təkmilləşdirilməsi barədə təkliflər verməkdən, hüquqi dövlət və vətəndaş cəmiyyəti şəraitində onların səmərəli fəaliyyətini təmin edən tövsiyələr işləyib hazırlamaqdan ibarətdir.

Sadalanan məqsədlərə nail olmaq üçün tədqiqat işində qarşıya aşağıdakı ***vəzifələr*** qoyulmuşdur:

- dini təşkilatların müxtəlif növlərinin yaradılması, fəaliyyəti, bu fəaliyyətə xitam verilməsi ilə bağlı mülki hüquq münasibətlərinin hüquqi tənzimləmə xüsusiyyətlərini aşkar etmək, bu qurumların fəaliyyətini tədqiq etməklə, onların hüquqi vəziyyətini, dini qurumlar sistemində tutduqları hüquqi mövqeyi təhlil etmək və həmin mövqeyin təkmilləşdirilməsi imkanlarını müəyyən etmək;
- dini qurumların xüsusi hüququn subyekti kimi mülki-hüquqi təbiətini və əlamətlərini nəzəri baxımdan araşdırımaq;
- dini təşkilatlar institutunun tarixi təkamülünün, dini təşkilatlar haqqında milli qanunvericiliyimizin tarixi inkişafı istiqamətlərinin əsas qanunauyğunluqlarını aşkar etmək;
-ölkəmizin hüquq tarixində ilk dəfə olaraq, dini qurumların mülki-hüquqi statusu barədə tam və hərtərəfli elmi-nəzəri

konsepsiya hazırlamaq, mülki hüququn subyekti kimi onların bütün növləri üçün ümumi olan leqal anlayışı müəyyən etmək;

- qüvvədə olan normativ hüquqi bazadan istifadə etməklə dini qurumların öz fəaliyyətlərinin səmərəliliyini daha da yüksəltmək və vicdan azadlığını daha dolğun təmin etmək imkanlarını araşdırmaq;

- AR ikinci dəfə müstəqillik əldə etdikdən sonra dini qurumların topladıqları təcrübəni, habelə mütərəqqi xarici nailiyyətləri nəzərə almaqla müvafiq qanunvericilik aktlarına düzəliş və əlavələrin edilməsi məqsədi ilə nəzəri cəhətdən əsaslı və praktik baxımdan tətbiq üçün yararlı təkliflər hazırlamaq;

-dini qurumların hüquq qabiliyyətinin aparıcı göstəricisi olan dini fəaliyyət anlayışını, məzmununu və formasını müəyyən etmək;

-dini qurumların əmlak hüquq münasibətlərində iştirakının xüsusiyyətlərini, xüsusilə onların əmlakının formalaşması mənbələri ilə bağlı yaranan hüquq münasibətlərini təhlil etmək;

- dini etiqad azadlığının təmin edilməsinin vacib həlqələrindən olan dini qurumların mülki hüquq subyekti kimi dövlət tərəfindən dəstəklənməsinin üsul və metodlarının təkmilləşdirilməsinin, vətəndaş cəmiyyətinin fəal üzvü kimi onları öz hüquq və qanuni maraqlarının müdafiəsinin təmin edilməsinin elmi-nəzəri əsaslarını hazırlamaq;

-qeyri-kommersiya təşkilatı kimi dini qurumların xüsusi hüquq qabiliyyətinin məzmunu, həcmi və digər özünəməxsus xüsusiyyətlərini araşdırmaq;

- dini qurumların idarəetmə sistemini və bu sistemə onların muxtariyyətinin təsirini araşdırmaq, müxtəlif idarəetmə orqanlarının səlahiyyətlərini müqayisəli təhlil etmək;

- dini təyinatlı dövlət və bələdiyyə mülkiyyətinin dini qurumlara verilməsinin hüquqi problemlərini qiymələndirmək;

- dini qurumların mülki-hüquqi vəziyyətini müəyyən edən müxtəlif qanunvericilik aktlarının, o cümlədən xarici təcrübə ilə müqayisəli təhlilini aparmaq;

- dini qurumların mülki-hüquqi statusuna təsir göstərən daxili qaydalar və lokal sənədlərin təhlili əsasında onlardan istifadənin səmərəliliyinin artırılması üçün təkliflər hazırlamaq;

- dini qurumların yaradılması və fəaliyyətini müasir çağırışlara uyğun olaraq təkmilləşdirən əsaslandırımış konkret tövsiyə və təklifləri təqdim etmək.

Dini qurumların mülki-hüquqi vəziyyəti ilə bağlı normativ hüquqi aktlar, hüquqtətbiq prosesi, xarici təcrübə araşdırılarkən ***dissertasiyanın metodoloji əsası kimi*** aşağıdakı kompleks elmi idrak metodlarından istifadə edilir: tarixi-hüquqi, məntiqi, sistemli-müqayisəli hüquqşünaslıq, struktur – funksional, statistik və s.. Mülki, konstitusiya, inzibati, beynəlxalq və digər hüquq sahələrinə aid qanunvericilik sahələri araşdırılarkən dialektik dərketmə və innavasion metodologiya metodundan da istifadə edilmişdir.

Aparılan tədqiqat aşağıdakı ***müddəaları*** müdafiəyə çıxarmağa imkan verir:

- Dini etiqad və vicdan azadlığının kollektiv şəkildə həyata keçirilməsi beynəlxalq və milli qanunvericilik aktları ilə nəzərdə tutulmuş hüquqlardan biridir. Bu üsulla hüquqların həyata keçirilməsinin ən optimal variantlarından biri isə dindar şəxslərin yaratdıqları korporativ qurumlardır. Qanuna, məntiqə, sağlam düşüncəyə, kanonik, şəri və digər dini normalara söykənərək yaradılan və fəaliyyət göstərən dini təşkilatlar dini etiqad və vicdan azadlığının həyata keçirilməsinin təmin edilməsində əhəmiyyətli rol oynayır;

- Dini qurumların hüquq subyekti kimi uğurlu fəaliyyəti onun idarəetmə orqanlarının düzgün təşkili, həmin orqanların səlahiyyətlərinin qabaqcıl idarəetmə prinsiplərinə uyğun müəyyən edilməsindən birbaşa asılıdır. Xüsusilə yerli qurumlar-dini

icmaların idarə olunmasında icma rəhbərliyi ilə din xadimlərinin səlahiyyətlərinin uzlaşdırılması əhəmiyyətli rol oynayır. Buna isə müvafiq sahədə mükəmməl hüquqi tənzimləmə və hüquqtətbiq təcrübəsi olmadan nail olmaq xeyli çətindir.

-Dini qurumların muxtariyyəti prinsipi nəzərə alınarsa, onların səmərəli fəaliyyətində daxili (lokal) sənədlərin əvəzolunmaz rolunu qeyd etməyə bilmərik. Təcrübə göstərir ki, bu gün çox az sayda dini qurumlar belə sənədlərdən istifadə edirlər. Buna görə də dini mərkəz və idarələr tərəfindən daxili (lokal) sənədlərin nümunələrinin hazırlanması və dini qurumlara tövsiyə olunması bu sahədə dönüş yaradardı.

-Ölkəmizdə vətəndaş cəmiyyətinin təşəkkül tapdığı bir mərhələdə ictimai münasibətlərin hüquqi tənzimlənməsi demokratik, dünyəvi və hüquqi dövlətin əsas funksiyalarından birinə çevrilməli, dini qurumların "muxtariyyəti" və dünyada dini şüarlardan istifadə etməklə baş verən fəlakətlərin dərsləri də nəzərə alınmaqla dövlət-din münasibətlərinin optimal modeli müəyyən edilməlidir. Bu modelin müəyyən edilməsi tələbi dini təşkilatların yaradılması, fəaliyyəti, yenidən təşkili və ləğvi ilə bağlı məsələlərin qanunvericiliklə tənzimlənməsində də gözlənilməlidir. Belə ki, dinin dövlətdən ayrı olması prinsipi bu təşkilatların müstəqil fəaliyyətini nə qədər tələb edirsə, bu qurumların fəaliyyətinin dini etiqad və vicdan azadlığı kimi fundamental insan hüquqları ilə bağlı olması həmin fəaliyyətin normativ tənzimlənməsini bir o qədər qaçılmaz edir. Bu gün belə bir müstəqilliklə normativ tənzimlənmənin uyğunlaşmasının təmin edilməsinə ciddi ehtiyac duyulur.

- Mütərəqqi xarici qanunvericilik, təcrübə və nəzəri araşdırmalar nəzərə alınmaqla tədqiqat işində bütün dini qurumların aşağıdakı universal tərifi verilir: *dini qurumlar* dinə birlikdə ibadət etmək, din xadimləri və dini ixtisaslar üzrə digər kadrlar hazırlamaq, yaxud digər dini tələbatı ödəmək məqsədi ilə yara-

dılmış, habelə dini icmaların birləşdikləri, hüquqi şəxs statuslu qeyri-kommersiya təşkilatlarıdırlar;

-Yaranma üsulu, hüquq qabiliyyətinin həcmi, idarəetmə qaydaları, fəaliyyət prinsipləri, fəaliyyətinə xitamvermə əsasları, təsisçilərin hüquq və vəzifələrinin xarakteri və digər spesifik cəhətləri nəzərə alınmaqla dini qurumlar hüquqi şəxslərin ayrıca təşkilati-hüquqi forması hesab edilir;

-Müasir dövrdə dini mərkəz və idarələr fəaliyyət göstərdikləri ölkələrdə sosial-ictimai həyatın ən müxtəlif sahələri üçün, xüsusilə mənəvi sektora aid olan bölmələr üçün vətəndaş cəmiyyətinin fəal üzvü kimi məsuliyyət daşıyır. Belə bir vəziyyətdə onların müvafiq sahəyə aid olan dini qurumların yaradılması, fəaliyyəti və xitamı ilə bağlı hüquqi səlahiyyətlərinin genişləndiriməsi zəruridir;

-Dini qurumların hüquq qabiliyyəti xüsusi xarakter daşıyır və onun həcmi qanunla müəyyən edilir. Digər qanunvericilik aktları ilə, habelə təsis sənədləri ilə bu qabiliyyətin həcmi və məzmunu dəyişdirilə bilməz;

-Dini qurumların sahibkarlıq fəaliyyəti məqsədi ilə təsis etdikləri kommersiya qurumlarının fəaliyyət predmeti həmin qurumların qarşısında duran vəzifələrə uyğun olmalıdır;

-Müsəlman hüququnun inkişafı və tətbiqi təcrübəsi, habelə müsəlman ölkələrinin qanunvericilik ənənələrinin təhlili göstərir ki, islam dini icmalarının maddi təminatının əsas mənbələrindən biri artıq tarixin sınağından keçmiş vəqflər vasitəsi ilə onların dəstəklənməsidir. Milli qanunvericilyimizdə "vəqf əmlak" ifadəsindən istifadə olunsa da (DEAHQ-un 20-ci maddəsi) onun və təşkilati-hüquqi forma kimi "vəqfin" anlayışları öz əksini tapmamışdır. Bu təşkilati-hüquqi formanın ölkəmizdə tətbiqi üçün müvafiq normativ hüquqi bazanın yaradılması yerinə düşərdi.

***Dissertasiyanın elmi yeniliyi*** bundan ibarətdir ki, o, Azərbaycanda vətəndaş cəmiyyətinin əsas institutlarından biri

olan dini qurumların mülki-hüquqi vəziyyətini müəyyən edən normativ hüquqi bazanın kompleks tədqiqinə həsr edilmiş monoqrafik xarakterli ilk tədqiqat işidir və burada həmin qurumların müxtəlif dövrlərdə, xüsusilə ölkəmizin müstəqilliyi dönəmində mülki-hüquqi vəziyyətinin bəzi problem məsələləri dərindən araşdırılmış, qanunvericilik, elmi-nəzəri araşdırmalar və məhkəmə təcrübəsi əsasında onların müxtəlif növlərinin hüquq subyekti kimi hüquqi təbiəti və əlamətləri, mahiyyəti və fəaliyyət prinsipləri, hüquq qabiliyyətinin həcmi və məzmunu, əmlak hüquq münasibətlərinin iştirakçısı kimi onların özünəməxsus xüsusiyyətləri təhlil edilmiş, onların mülki hüquq subyektləri kimi daha səmərəli fəaliyyət göstərmələri üçün qüvvədə olan qanunvericilik aktlarının təkmilləşdirilməsi üçün elmi cəhətdən əsaslandırılmış təkliflər verilmişdir. Elmi yenilik həm də bunda özünü göstərir ki, mülki hüquq subyekti kimi dini qurumların aktual hüquqi problemləri təkcə mülki-hüquqi qanunvericilik aktları baxımından deyil, həm də dini etiqad azadlığının təmin edilməsində əsas vasitələrdən biri kimi, konstitusiya qanunveriliyi baxımından, digər hüquq münasibətlərinin iştirakçısı kimi cinayət, inzibati və s. qanunvericilik baxımından təhlil edilir. Lakin tədqiqatın bu cür sahələrarası elementləri də ehtiva etməsinə baxmayaraq, onun mülki-hüquqi istiqaməti tam üstünlük təşkil edir.

Tədqiqat işində müxtəlif növdən olan dini qurumların fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının müqayisəli təhlili aparılmış, milli və xarici ölkələrin müvafiq məhkəmə təcrübəsi ümumiləşdirilmiş, dini qurumların mülki hüquq subyekti kimi əsas hüquqi əlamətlərinə söykənən anlayışı verilmişdir.

***Tədqiqat işinin nəzəri və təcrübi əhəmiyyəti.*** Dissertasiya işinin nəticələrindən dini qurumların, həmin qurumların dövlət qeydiyyatı orqanlarının və digər müvafiq təşkilatların gündəlik fəaliyyətlərində, o cümlədən hüquqtətbiq prosesində, bütövlük-

də dini qurumların, onların müxtəlif növlərinin mülki-hüquqi vəziyyəti ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsində, ali təhsil müəssisələrinin hüquq və ilahiyyat fakültələrində mülki hüquq, konstitusiya hüququ, korporativ hüquq və ilahiyyat üzrə mühazirələrin oxunmasında, həmin sahə üzrə dərs vəsaitləri və tədris proqramlarının hazırlanmasında, bütün növdən olan dini qurumlarda elmi cəhətdən əsaslandırılmış, müasir tələblərlə uzlaşan idarəetmənin, dindarların birgə ibadət hüquqlarının hərtərəfli müdafiəsinin təşkilində istifadə edilə bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunda yerinə yetirilmiş və müzakirə edilmişdir.

Tədqiqatın əsas müddəaları müəllifin Azərbaycan, Ukrayna, Rusiya, Venesuela  və Qazaxıstanda nəşr olunmuş elmi məqalələrində və ayrıca çap edilmiş monoqrafiyalarında («Dini etiqad azadlığı haqqında» AR Qanununun kommentariyası” və “Din təhsili və dini təhsil müəssisələri-hüquqi aspektlər” ), habelə “Korporativ hüquq” dərsliyində  öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya işinə onun məqsədləri, vəzifələri və metodologiyasına uyğun olaraq giriş, beş fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. İŞİN ƏSAS MƏZMUNU

*Girişdə* tədqiqat mövzusunun seçilməsi və aktuallığı əsaslandırılır, onun araşdırılması səviyyəsinə qiymət verilir, dissertasiya işinin məqsədi və qarşısında duran vəzifələr, metodoloji və nəzəri əsasları müəyyən edilir, onun elmi yeniliyi açılır, müdafiəyə çıxarılan əsas müddəalar müəyyən edilir, araşdırmanın nəzəri və təcrübi əhəmiyyəti, habelə strukturuna diqqət yetirilir.

Tədqiqat işinin **“Dini qurumların və onlar haqqında qanunvericiliyin yaranması və inkişafı mərhələlərinin tarixi-hüquqi aspektləri”** adlanan I fəsli 3 paraqrafdan ibarətdir.

***"Dini etiqadın kollektiv şəkildə həyata keçirilməsinin tarixi-hüquqi təşəkkül prosesi"*** adlanan ilk paraqrafda dini dünyagörüşünün yaranması və dini birləşmələrin formalaşmasının tarixi zəruriliyi və mərhələləri araşdırılır. Qeyd olunur ki, dinin yarandığı ilk dövrlərdə insanlar daha çox təkbaşına və ya ailə formatında etiqada üstünlük verirdilər. Hər hansı birgə etiqad formaları da bir dinə (dini cərəyana) mənsubluq xüsusiyyəti kimi deyil, müəyyən bir toplumda mövcudolma əlaməti kimi özünü göstərirdi, başqa sözlə, uzun müddət "*... dinin sosial daşıyıcısı qismində spesifik dini qrup deyil, sosial differensasiyanın yenicə inkişaf etməyə başladığı və digərləri ilə birlikdə müəyyən dini əlamətlərin, xüsusiyyətlərin də xas olduğu cəmiyyət çıxış edirdi*"[12]**.** Belə bir vəziyyətdə din adamlarının, məhz dini ehtiyacları yerinə yetirmək məqsədi ilə hər hansı bir qrup və ya icma şəklində birləşməsi, fəaliyyət göstərməsi halı xarakterik deyildi. Lakin yüz illərlə davam edən ictimai-siyasi, sosial-iqtisadi proseslər dini birliklərin də təşkilatlanması zərurətini ortaya qoydu.

Araşdırmalar göstərir ki, müxtəlif ölkələrdə ictimai həyatın müəyyən tarixi inkişafı prosesində dinlərin və dini cərəyanların təşkilatlanması aşağıdakı səbəblərə görə qaçılmaz xarakter daşımağa başlamışdı: insanların həmin dövrlərdə izahı mümkün olmayan təbiət hadisələri və ciddi narahatçılığa və qorxu hissinə səbəb olan digər hallar qarşısında birləşmək və birgə fəaliyyət göstərmək istəyinin mövcudluğu; qəbilə, tayfa və digər ibtidai qurumlarda, habelə, ilk dövlət təsisatlarında müstəqil din xadimləri dəstəsinin formalaşması, onların qrup maraqlarının ifadə və təminat zərurəti; digər din və dini cərəyanların təmsilçiləri, habelə toplumun başqa qurumları tərəfin-

[12] Гараджа, В.И. Социология религии. / В.И.Гараджа, Москва: Аспект-пресс, -1996, -406 с.136 с.

dən təqib və təzyiqlərə müqavimət göstərmək zərurəti[13]; dini ritual, ayin və mərasimlərin icrası üçün inşa edilmiş tikililərin (məbədlərin), eyni məqsədlər üçün toplanmış, ianə verilmiş, alınmış və digər üsullarla əldə olunmuş əşya və predmetlərin saxlanılması və idarə olunması zərurəti; siyasi hakimiyyət təmsilçilərinin, qəbilə və tayfa rəhbərlərinin öz hakimiyyətlərini daha da möhkəmləndirmək və onun ilahi mənşəli olmasını təsdiqləmək üçün xüsusi quruma ehtiyacı. Dinlərin funksional təyinatlarının yeni şəraitə uyğunlaşması, hər bir dinin özünəməxsus ayin və mərasimlərinin formalaşması, dini qrupların üzvləri arasında funksiyaların, kultların ixtisaslaşması və peşəkarlaşmasında əks olunan bölgüsü, din xadimlərinin dəqiq vəzifə bölgüsünü də ehtiva edən kooperasiyası, ənənələrin işlənib hazırlanmasına, bir siyasi təsisata aid ərazidə fərqli dinlərin və dini cərəyanların birgə mövcudluğu reallığının ortaya çıxması və digər amillər də dini birliklərin yaranmasına gətirib çıxaran ilkin şərtlər hesab edilir.

I fəslin ikinci paraqrafında ***Azərbaycanda dini qurumların formalaşmasının tarixi-hüquqi qanunauyğunluqları*** araşdırılır və qeyd olunur ki, ölkəmizin ərazisində qədim dövrlərdə mövcud olmuş dövlətlərdə-Manna, Midiya, Atropaten, Albaniya və digər dövlət qurumlarında həmin zaman üçün xarakterik olan dinlərin (bütpərəstlik, yəhudilik, zərdüştilik (atəşpərəstlik), xristianlıq) demək olar ki, hamısının mövcud olmasını sübut edən tarixi məxəzlər var.[14] Maraqlıdır ki, xristianlığı rəsmi

[13]Lance S. Lehnhof, Freedom of Religious Association: The Right of Religious Organizations to Obtain Legal Entity Status Under the European Convention// BYU Law Review, Volume 2002 | Issue 2 Article 16, 5-1-2002, p.561-610. P.567 http://digitalcommons.law.byu.edu/lawreview

[14] bax: Qurbanlı, Mübariz. Azərbaycanda dövlət-din münasibətləri: tarixi baxış və müasirlik / M.Qurbanlı. - Bakı. 2017, ??? s. s.6-24; Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda İslam: tarix və müasirlik. / -Bakı: Azərnəşr, -1991. - 224 s. s.25-42; Cəbiyev, Qafar. Girdiman tarixi və tarixi coğrafiyası./ Q.Cəbiyev. -Bakı:“Elm-təhsil”, -2015, 452 s., s.78-86

dövlət dini kimi ilk olaraq qəbul edən (313-cü il) Qədim Albaniya da Azərbaycan ərazisində təşəkkül tapıb mövcud olmuşdur. Onun Aquen yaşayış məntəqəsində keçirilən kilsə yığıncağında qəbul edilmiş 21 maddədən ibarət kilsə qanunları ilk dəfə olaraq din xadimlərinin hüquq və vəzifələrini, xristian dini icmalarının statusunu, kilsə, din xadimləri və digər aidiyyəti şəxslər arasındakı münasibətləri, habelə digər sırf hüquqi məsələləri tənzimləyirdi[15].

YII əsrin ortalarından etibarən ölkəmizin ərazisində yayılmağa başlamış islam strukturları daha çox dövlət təsisatları ilə çuğlaşmış və onların tərkibində əriyərək, digər dini təşkilatlardan fərqli bir inkişaf yolu keçmişlər. Müsəlman mənbələrinin gəldiyi ümumi nəticələrə görə geniş mənada islam icması qismində bütöv "Məhəmməd (ə.s.) hümməti" birliyi çıxış etməldir. Bu birliyin əsas xüsusiyyətləri "*vahid Allaha, vahid Peyğəmbərə, vahid Kitaba, vahid Qibləyə, vahid ibadət ayinlərinə malik olmaqdan" icma üzvlərinin "qardaş olmalarından", "günah, pislik və ədalətsizlik etməyə yol verməmələrindən*" ibarət idi[16]. Göründüyü kimi bu cür birlik təşkilati-hüquqi mahiyyətdən, o cümlədən mülki hüquqi formatdan tamamilə uzaq bir fenomen kimi daha çox dini-mənəvi çalarlara malik idi.

Müsəlman ölkələrində islam dini icmalarının formalaşmasında və onların maddi-texniki bazasının yaradılmasında şərq trastlarının-vəqflərin əvəzsiz rolu olmuşdur. Bu qurumların sosial-hüquqi mahiyyəti araşdırılır və vəqf əmlakının hüquqi rejiminə qiymət verilir. Qeyd olunur ki, ilk dövrlərdə yalnız yoxsul və ehtiyacı olan təbəqənin minimum tələbatını ödəmək məqsədi ilə xeyriyyəçilik fondu kimi fəaliyyət göstərən vəqflər

---

[15] Cəbiyev Qafar....s.254-257

[16] Шейх уль-ислам Аллахшукюр Пашазаде. Ислам на Кавказе. / Пашазаде А.Ш. -Баку. -2005. - 288 с. с.52

qısa bir müddətdən sonra, islam dininin xeyrinə fəaliyyət göstərən iri təşkilatlara çevrilməyə başladılar[17].

Azərbaycanın Rusiya imperiyasına ilhaq olunduqdan sonra ölkəmizin ərazisində islam qurumlarının təşkilatlanmasının tamamilə yeni, fərqli mərhələsi başladı. Bu belə bir zərurətdən doğurdu ki, *"müsəlman ruhaniliyinin vəziyyəti çar rejiminin müstəmləkəçi siyasətinin tələblərinə və Rusiyadakı digər dini konfessiyaların, xüsusilə pravoslav qurumların mövcud statusu ilə uzlaşmırdı"*[18]. Bu fərqin aradan götürülməsi məqsədi ilə Qafqazda hər iki məzhəb üzrə Zaqafqaziya Müsəlmanları Ruhani İdarələri təsis olundu (1872-ci il). Lakin bu sənədlərin qəbulu uzun sürən çəkişmələrdən sonra mümkün oldu[19]. 1918-ci il sentyabrın 1-də hər iki məzhəbə aid olan İdarələr "Məşixə" adlanan vahid təşkilatda birləşdilər. Bu paraqrafda, həmçinin dini qurumların sovet hakimiyyəti illərində mülki-hüquqi vəziyyətinin tədqiqinə geniş yer verilmişdir.

I fəslin ***"Azərbaycanın müstəqillik dövründə dini qurumlar haqqında yeni normativ hüquqi bazanın formalaşmasının xüsusiyyətləri"*** adlanan üçüncü paraqrafında ölkəmiz ikinci dəfə dövlət müstəqilliyini əldə etdikdən sonra dini qurumların mülki-hüquqi vəziyyətini müəyyən edən qanunvericilik aktlarının formalaşması qanunauyğunluqları tədqiq edilir. Qeyd olunur ki, dünyəviliyi elə ilk konstitusion aktlarında əsas prinsip elan edən ölkəmizdə dini etiqadın birgə icrası üçün tari-

---

[17]Məlikova, M.F. Xarici ölkələrin dövlət və hüquq tarixi (qədim və orta əsrlər). Dərslik. / M.F.Məlikova, E.Q.Nəbiyev. -Bakı: Elm və həyat, -2005. - 463 s. s.91

[18] Гасанов Симран. Некоторые правовые особенности проекта «Положения о мусульманском духовенстве Алиева учения» (1849 г.) подготовленного Н.В.Ханыковым/ *Bakı: "Qanun" jurnalı. №3, 2020, s.3-9*

[19]См.: Гасанов Симран. Некоторые историко-правовые проблемы институализации исламских духовных структур в Южном Кавказе в первой половине XIX века/ *Bakı: "Qanun" jurnalı. №2, 2020, s.3-11*

xin sınağından çıxmış xüsusi hüququn subyektləri kimi "korporativ qurumlar" - dini təşkilatlar formatının tətbiqi məqsədəuyğun hesab edildi.

Qeyd olunan konstitusion prinsiplər əsasında dini etiqad azadlığı ilə bağlı yaranan ictimai münasibətləri tənzimləməli olan "Dini etiqad azadlığı haqqında Qanun" (20.08.1992-ci ildə qəbul edilmişdir) ötən müddət ərzində ictimai münasibətlərin kifayət qədər mürəkkəb, ziddiyyətli və eyni zamanda dinamik inkişaf edən mühüm sahəsini, o cümlədən dini qurumların yaradılması, fəaliyyəti və ləğvi ilə bağlı ortaya çıxan çoxsaylı məsələləri nizama salır. Cəmi 31 maddədən ibarət olan bu sənədə, qəbul edildikdən sonra yüzlərlə əlavə və dəyişikliklərin edilməsini nəzərdə tutan 70-dən çox qanun qəbul edilmiş, demək olar ki, maddələrin hər birisi yeni redaksiyada verilmişdir. Bunun kökləri dövlətin və dinin özünün tarixi qədər qədim və dayanıqlılıq keyfiyyətindən məhrum olan dövlət-din münasibətlərinin inkişafı qanunauyğunluqları ilə bağlıdır.

Muxtariyyəti əksər dünyəvi hüquq sistemləri tərəfindən tanınan dini qurumların mülki-hüquqi vəziyyətinin tənzimlənməsində daxili qaydalar, xüsusilə onların mənsub olduqları dinin normaları (kanonik, şəriət və s. normalar), habelə dini mərkəz və idarələrin, dini icmaların öz səlahiyyətləri çərçivəsində qəbul etdikləri daxili (lokal) normativ sənədlər (xüsusilə onların nizamnamələri) önəmli rol oynaya bilərlər. Bu normaların dini icmaların həyatında requlyativ rolu əksər mütəxəssislər tərəfindən qəbul edilir[20]. Bunun üçün əlverişli "normativ mühit" də mövcuddur. Belə ki, dinlə və dini təşkilatlarla bağlı olan "*ictimai münasibətlərin böyük bir hissəsi hüquq normaları ilə və*

[20] Подопригора, А.Р. Государство и религиозные организации: административно-правовые вопросы /-Алма-Ата: Аркаим, -2002. -324 с. с.53-54

*deməli dövlət nəzarəti ilə əhatə olunmur”*[21]. Lakin ölkəmizdə dini etiqad azadlığının institusional formada təşəkkül tapması təcrübəsinin yenicə formalaşması və əksər dini təşkilatların öz hüquqlarına dərindən bələd olmaması bu imkandan istifadə etmək şansını məhdudlaşdırır. Bu baxımdan bir sıra xarici ölkələrin təcrübəsində rast gəldiyimiz kimi, dini qurumların qanunvericiliyə zidd olmayan məqamlarda öz daxili normaları əsasında fəaliyyət göstərmək imkanlarının birbaşa milli qanunvericiliyimizdə də öz əksini tapması məqsədəmüvafiq olardı.[22] (Bu cür yanaşmanın zəruriliyi Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi iştirakçı dövlətlərinin nümayəndələrinin 15.01.1989-cu il Vyana görüşünün Yekun sənədinin 16.4-cü bəndi ilə də əsaslandırılır)[23].

Tədqiqat işinin **“Dini qurumların mülki-hüquqi anlayışı, muxtariyyəti və hüququ qabiliyyətinin bəzi xüsusiyyətləri”** adlanan ikinci fəslinin birinci paraqrafı ***dini qurumların mülki-hüquqi anlayışı və əlamətlərinə*** həsr edilmişdir. Burada ilk növbədə “dini qurum” ifadəsinin milli qanunvericiliyimizdə peyda olması tarixi və onun etimologiyası izah edilir, bu ifadə ilə əhatə olunan hüquq subyektləri sadalanır. Qeyd olunur ki, bu qurumların leqal siyahısı qapalı xarakter daşısa da buraya ən

---

[21]Карпушкин, А.В. Конституционно-правовые аспекты религиозной толерантности во взаимоотношениях государства с религиозными объединениями // Известия высших учебных заведений. Поволжский регион. Общественные науки. Политика и право. -№4, -2008 - с. 91-95

[22]Həsənov Simran. “Dını qurumların mülkı hüquqı vəzıyyətını tənzımləyən normatıv hüquqı aktların bəzı xüsusıyyətlərı”- *Azərbaycan Memarlıq və İnşaat Universiteti. Ümummilli lideri Heydər Əliyevin andan olmasının 95-ci ildönümünə həsr edilmiş “Milli-mənəvi dəyərlər: ənənə və müasirlik” mövzusunda Beynəlxalq elmi konfransın Materialları”.* səh. 333-340

[23]ATƏT üzvlərinin 1989-cu il Vyana görüşünün Yekun sənədi ((Elektron resurs)) / Vyanada 15.01.1989-cu ildə imzalanmışdır.URL:-http://lib.sale/prava-cheloveka-pravo/itogovyiy-dokument-venskoy-vstrechi-1989-goda-77952.html

azından ölkəmizdə mövcud olan dini ziyarətgahlar və ibadətgahlar, habelə dünya təcrübəsində dini birliklər, monastırlar və sektalar kimi hüquq subyektləri ola biləcək qurumlar daxil edilməmişdir ki, bu da mövcud qanunvericiliyin qüsuru kimi qiymətləndidrilə bilər. Bir çox xarici ölkələrin qanunvericilik aktlarının təhlili əsasında belə bir qənaət ifadə olunur ki, burada dini təşkilatların adlandırılması ilə bağlı vahid yanaşma yoxdur.

Eyni müxtəliflik dini qurumlara verilən leqal anlayışlarda da müşahidə edilir. Bu isə obyektiv səbəblərlə bağlıdır. Belə ki, dövlət formasından, ölkənin geosiyasi vəziyyətindən, iqtisadi inkişafından, əhalinin etnik və konfessional tərkibindən, təhsil səviyyəsindən, tarixi şəraitdən, din-dövlət münasibətlərinin modelindən, dinin cəmiyyət həyatındakı yeri və rolundan, ölkənin tarixi inkişaf ənənələrindən və digər amillərdən asılı olaraq dini təşkilatların ölkə həyatındakı iştirakı xüsusiyyətləri də dəyişir. Dini təşkilatın anlayışının dəqiq müəyyən edilməsinin digər problemi bununla bağlıdır ki, onun müəyyənedici əlaməti olan "din"in mahiyyəti barədə nəzəriyyəçilər arasında vahid mövqe müşahidə olunmur. Bütün bunlar isə son nəticədə dini qurumların hüquqi vəziyyətinin, o cümlədən mülki-hüquqi statusunun müəyyən edilməsində məlum problemləri yaradır[24].

Yuxarıda deyilənlər və milli qanunvericiliyimizin müvafiq müddəalarını nəzərə alınraq dini qurumlara belə bir anlayış verilir: dini qurumlar dinə birlikdə ibadət etmək, din xadimləri və dini ixtisaslar üzrə digər kadrlar hazırlamaq, yaxud digər dini tələbatı ödəmək məqsədi ilə yaradılmış, habelə dini icmaların birləşdikləri hüquqi şəxs statuslu qeyri-kommersiya təşkilatlarıdırlar. Dini qurumların cəmiyyətdəki kəmiyyət və keyfiyyət göstəricilərinin sürətlə dəyişməsini, fəaliyyətlərinin hüquqi tənzimlənməsinin isə zəruri səviyyədə olmamasını nəzərə ala-

[24]Norman, Doe. Law and Religion in Europe. A Comparative Introduction. / D.Norman. -Oxford: Oxford University press. -2011. -306 p. p.88-89

raq, onların beynəlxalq təcrübəyə əsaslanan ümumi leqal anlayışının MM-də, yaxud DEAHQ-da ayrıca təsbit olunması vacib hesab olunur[25]. Burada dini qurumların hüquqi şəxs kimi funksional, iqtisadi, prosessual-hüquqi, mülki hüquq münasibətlərində öz adından çıxış etmək əlamətlərinin spesifik cəhətləri, habelə yalnız həmin qurumlara xas olan xüsusi əlamətləri (dini mənsubiyyət, dini qurumların öz mərkəzi (idarələri) ilə təmsil olunmaları və s.) də araşdırılır.

Fəslin ***"Dini qurumların qanun qarşısında mülki-hüquqi bərabərliyi dini etiqad azadlığının əsas şərtlərindən biri kimi"*** adlanan ikinci paraqrafında mülki qanunvericiliyin əsas prinsiplərindən biri hesab edilən və dini qurumların da mülki-hüquqi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərən hüquq subyektlərinin mülki-hüquqi bərabərliyi problemləri araşdırılır. Bərabərliyin təmin edilməsi dini qurumlara münasibətdə xüsusilə aktual xarakter daşıyır. Çünki, bir çox hallarda bu təşkilatların hüquqi vəziyyətinin fərqliliyi müxtəlif dinlərə yanaşmada ayrıseçkilik kimi görünə bilər. Bu isə həm beynəlxalq, həm də milli qanunvericiliyin müəyyən etdiyi tələblər baxımından yolverilməz hesab edilir. Buna görə də hər bir dövlət, xüsusilə çoxkonfessiyalı struktura malik ölkələr dini təşkilatların ən azı formal baxımdan bərabərliyinin təmin olunması üçün zəruri addımlar atmağa çalışır.

Dini qurumların mülki-hüquqi bərabərliyinin təmin olunmasının formal-yuridik əsasını ilk növbədə onların qanun qarşısında bərabərliyi konstitusion prinsipi təşkil edir. Bu müddəaya görə qanunvericilik normaları dini qurumların hər hansı bir qrupunu digəri qarşısında daha əlverişli və yaxud əksinə, asılı vəziyyətdə qoymur. Konstitusiyada və digər qanunvericilik

---

[25]Həsənov Simran. "Dini qurumların mülki-hüquqi statusunun bəzi məsələləri"-*AMEA Fəlsəfə İnstitutu. "Multikulturalizmin Azərbaycan modeli:fəlsəfi, sosioloji və hüquqi baxış. Beynəlxalq elmi konfransın materialları". Bakı, 2018, səh.335-343*

aktlarında dinlərin və dini qurumların bərabərliyindən danışılarkən onların məhz formal-hüquqi bərabərliyi başa düşülməlidir. "*Formal bərabərlik özünü dövlət üçün insanlara yaradılan imkanlarda və şəraitdə ifadə edir. Dövlət hamıya bərabər imkanlar, şərait yaratmalıdır. Sonradan kiminsə hamı üçün yaradılmış imkandan daha uğurlu istifadə edib hər hansı fəaliyyətdə irəliləməsi aydındır ki, faktiki bərabərsizlik yaradacaqdır"*[26]. Bu baxımdan dini qurumların da mülki-hüquqi baxımdan faktiki bərabərliyini təmin etmək çətin və fikrimizcə, həm də faydasız bir işdir. Cəmiyyətin müxtəlif institutları, ictimai birliklər, həmkarlar təşkilatları, əhalinin ayrı-ayrı qrupları və vətəndaşlar da bu və ya digər dini qurumla (dinlə) əməkdaşlıq etməkdə, onu dəstəkləməkdə, mülki münasibətlərə daxil olmaqda sərbəstdirlər və onların hər hansı bir dinə üstünlük verməlari bu halda ayrıseçkilik və qanun pozuntusu hesab edilməməlidir[27].

Dini təşkilatların sayı çox və tərkibi müxtəlif olduğu üçün onlara bəzən, hətta formal bərabər yanaşmanı da təmin etmək praktik çətinliklər yaradır. Buna görə də təcrübədə formal bərabərliyin yalnız ölkə əhalisinin etiqad etdiyi ənənəvi dinlərə münasibətdə tətbiqini mümkün və məqsədəuyğun hesab edən mülahizələrə rast gəlmək olar[28]. Dini qurumlar dini təşkilatlar sistemindəki yerindən də asılı olaraq müxtəlif həcmdə mülki hüquq və vəzifələrə, fərqli hüquq qabiliyyətinə malik ola bilərlər.

---

[26] Əsgərov, Ziyafət. Konstitusiya hüququ. / Bakı. 2011, 757 s., s.144

[27] Həsənov Simran. Din təhsili və dini təhsil müəssisələri (hüquqi aspektlər) / Bakı: "Elm və təhsil", 2016, -208 s.s.102

[28].Понкин И.В. Комментарий к некоторым статьям Федерального закона «О свободе совести и о религиозных объединениях". / Москва. - 2007. - 120 с.,с.52; Цыпин, В.А. Церковное право. Курс лекции // В.А.Цыпин. Круглый стол по религиозному образованию в Русской Православной Церкви. -Москва: изд-во МФТИ, 1996, -544 с.

İkinci fəslin ***“Dini qurumların muxtariyyətinin onların mülki-hüquqi vəziyyətinə təsiri. Muxtariyyət və idarəetmə”*** adlı üçüncü paraqrafında dini qurumların mülki-hüquqi statusunu müəyyən edən qanunvericilik normalarının təhlili əsasında belə bir nəticəyə gəlinir ki, dini qurumların digər hüquqi şəxslərlə müqayisədə, yaradılması, fəaliyyəti və ləğv edilməsi ilə bağlı qanunverici daha çox dispozitiv normalar müəyyən edir. Bu, bütün qabaqcıl dünya ölkələrinin hüquq təcrübəsində qəbul edilmiş dini qurumların muxtariyyəti prinsipindən irəli gəlir. Dini təşkilatların muxtariyyətinin belə bir paradoksallığı qeyd olunur ki, onlar daha çox dövlətlə münasibətlərdə muxtar statusa malikdirlər və bu cür nisbi müstəqilliyi dövlətin siyasi iradəsi əsasında məhz ondan (dövlətdən) alırlar. Bu iradədən kənar dini qurumların muxtariyyəti ola bilməz. Dini qurumların nisbi sərbəstliyinin dünyəvi dövlətlərdə bir əks üzü də var. Belə ki, bu qurumlar dövlət “müdaxiləsi”ndən nə qədər uzaqdırlarsa, dövlət də öz funksiyalarını yerinə yetirərkən dini təşkilatların təzyiqindən bir o qədər azaddır[29].

Dini qurumların muxtariyyəti idarəetmə orqanlarının formalaşdırılması və fəaliyyətində onlara verilmiş müstəqillikdə daha çox özünü büruzə verir. Müxtəlif ölkələrin qanunvericilik aktlarını və hüquq ədəbiyyatındakı fərqli mülahizələri müqayisəli şəkildə araşdıran müəlliflər belə bir haqlı nəticəyə gəlirlər ki, dini təşkilatların nisbi müstəqilliyi (muxtariyyəti) bir sıra önəmli məsələlərlə yanaşı idarəetməni, din xadimlərinin vəzifəyə təyin olunması və vəzifədən çıxarılmasını, iyerarxik strukturun müəyyən edilməsini özündə ehtiva edir[30].

---

[29] Avrupa Birliği Ülkelerinde din-dövlet ilişkileri. / Editörler Ali Köşe, Talib Küçükcan, İstanbul: İSAM yayınları, 2008. - 300 s., s.25

[30] Подопригора, А.Р....s.57; Филипп, (Рябых) игумен. О признании исключительной компетенции религиозных организаций по установлению их внутренней структуры и внутренних норм отношений как одной из гарантий свободы вероисповедания в

Klassik səmavi dinlərin əsrlər boyu formalaşmış idarəetmə ənənələri mövcudluğunu nəzərə alan qanunverici bu məsələni qurumun (onun mərkəzinin)  daxili işi hesab edir. Qanunverici dini qurumların idarə olunmasına həmin təşkilatların mənsub olduğu konfessiyaların daxili qaydalarının (kanonlarının, şəri normalarının və s.) da əhəmiyyətli dərəcədə təsir göstərdiyini nəzərə almalı və ona hörmətlə yanaşmalıdır.[31] Buna görə də DEAHQ-da dini qurumların idarəetmə orqanları ilə bağlı birbaşa və ya dolayısı ilə ipucu ola biləcək yalnız bir neçə norma nəzərdə tutulmuşdur (11-ci maddənin 2-ci hissəsi; 12-ci maddənin 2-ci hissəsi;12-ci maddənin 1-ci hissəsinin 1-ci bəndi; 8-ci maddənin 3-cü hissəsi).

Fəslin ***"Dini qurumların qeyri-kommersiya qurumu kimi mülki hüquq qabiliyyətinin hüdudları"*** adlanan dördüncü paraqrafında dini təşkilatların mülki-hüquq qabiliyyətinin leqal əsasları araşdırılır, onun xarakterik cəhətləri, həcmi, yaranması və bitməsi anı, növü, istiqamətləri təhlil edilir, bununla bağlı normaların hüqüqtətbiq təcrübəsinə qiymət verilir.  Qeyd olunur ki, dini qurumlar xüsusi (məhdud) hüquq qabiliyyətinə malik olduqları üçün bu fəaliyyətin predmeti və məqsədləri qanunda və nizamnamədə göstərilənlərlə məhdudlaşdırılmalı və onlardan kənara çıxmamalı, onların malik olduğu hüquqlar və yerinə yetirməli olduğu vəzifələr isə həmin predmet və məqsədlərin həyata keçirilməsinə yönəldilməlidir.

---

демократическом государстве // Филипп(Рябых) игумен, Понкин И.В., Понкина А.И. / Москва: Нравственные императивы в праве. 2012, № 3, -с.11-32

[31] Koul Dram. Freedom of Religion or Belief: Laws Affecting the Structuring of Religious Communities. ((Electronic resourse))| 1999, p.13 (http://www.refworld.org.ru/publisher,OSCE,,,52736bcc4,0.html; Гасанов Симран. Порядок формирования и деятельность органов управления религиозных образований: правовые аспекты". *Асоціація українських правників. "Соціологія права" науково-практичний журнал, Ukrayna – 1-2, 2016. c. 25-30*

Dini qurumların hüquq qabiliyyəti ilə bağlı elmi diskussiyaların xeyli hissəsi onların hüquq və vəzifələrinin fəaliyyət məqsədlərinə uyğunlaşdırılması zərurəti ilə bağlıdır. Bir çox xarici ölkələrin qanunvericiliyi ilə təsbit olunmuş bu tələb bizim MM-də öz əksini tapmamışdır. Bu baxımdan, ilk növbədə bütün hüquqi şəxslərin, o cümlədən dini qurumların hüquq qabiliyyətinin sərhədlərini (hüdudlarını) təsbit edən ümumi normanın müəyyən edilməsi və onun MM-in 44-cü maddəsinə əlavə olunması məqsədəmüvafiq görünür[32].

Hüquq qabiliyyəti ilə fəaliyyət qabiliyyəti eyni vaxtda yaranan əksər digər hüquqi şəxslərdən fərqli olaraq qanunvericiliyə görə dini qurumlar yalnız dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatlarda hüquqi ünvan kimi göstərilən ibadət yerlərində həmin dini qurumlara dini mərkəz və idarələr tərəfindən din xadimi təyin edildikdən sonra fəaliyyət göstərə bilərlər. Nəzərə almaq lazımdır ki, bu xüsusiyyət dini qurumlardan yalnız dini icmalara aid edilə bilər.

DEAHQ-un müddəalarının sistemli təhlili göstərir ki, dini qurumların əsas məqsədi dini fəaliyyətlə məşğul olmaqdan ibarətdir. Əslində nəzəriyyəçilərin də yanaşması bu prinsipə söykənir[33]. Dini qurumların hüquqi statusu ilə bağlı digər anlayış və ifadələrdən fərqli olaraq "peşəkar dini fəaliyyət"in leqal anlayışı ümumi ifadələrlə və digər məqsədlərlə olsa da və fiziki şəxslərə aid olsa da DEAHQ-da öz əksini tapmışdır: *"dini tərbiyəyə və dini təhsilə, dindarların dini tələbatının ödənilməsinə, dinlərin yayılmasına, dini ayinlərin icrasına, moizələrin (xütbələrin) oxunmasına, dini qurumun inzibati və təşkilati idarəetməsinə yönəlmiş fəaliyyət"* (m. 4-1.1).

Qeyd olunmalıdır ki, dini qurumların müqəddəs yerlərə ziyarətlərin təşkili ilə bağlı fəaliyyətinin hüquqi xarakterinə ya-

---

[32] Həsənov Simran. Dini qurumların mülki hüquq qabiliyyətinin bəzi xüsusiyyətləri /Bakı, "*Nəqliyyat hüququ". №2-3, 2016, səh. 131-138*

[33] Аюшеева И.З...s.165

naşma da birmənalı deyildir. Bunu turizmin bir növü hesab edən bəzi müəlliflər həmin fəaliyyətin müvafiq qanunvericiliklə tənzimlənməsini zəruri hesab edirlər[34]. Başqaları isə bu fəaliyyəti maarifçilik kimi qiymətləndirirlər[35]**.** Bizim fikrimizcə, ziyarətlərin təşkili ilə bağlı fəaliyyət sırf turizm xidmətindən daha genişdir. Belə ki, bu cür səfərlər adi turizm turlarından fərqli olaraq daha çox müqəddəs yerlərin (şəxslərin) ziyarət olunması məqsədi daşıyır. Belə səfərlərin təşkili yüksək peşəkarlıq tələb edir və buna görə də bu səlahiyyət ya yalnız dini qurumlara həvalə edilməli, ya da onların nəzarəti altında, yaxından iştirakı ilə həyata keçirilməlidir.

İkinci fəslin sonuncu-beşinci paraqrafı dini qurumların hüquq qabiliyyətinin məzmunu ilə bağlı ən çox mübahisələrə səbəb olan kommersiya məsələlərinə həsr edilib və ***"Dini qurumların sahibkarlıq fəaliyyətinin hüquqi xüsusiyyətləri"*** adlanır. Məlumdur ki, mülki qanunvericilik bütün qeyri-kommersiya qurumları kimi dini təşkilatların da sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququnu da istisna etmir. Bu şərtlə ki, MM-in 43.6-cı maddəsinin tələbinə görə bu fəaliyyət onların yaradılması zamanı qarşılarına qoyulmuş məqsədlərə nail olmağa xidmət etməli və bu məqsədlərə uyğun gəlməlidir. *"Görünür bu o deməkdir ki, birincisi, sahibkarlıq fəaliyyətindən əldə olunan gəlir onun iştirakçılarına deyil, təşkilatın yaradılma məqsədlərinə yönəldilir. İkincisi, dini təşkilatlar elə sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər ki, xarakterinə görə onların yaradılma məqsədlərinə uyğun gəlsin."*[36]. Qüvvədə olan qanunvericilik dini qurumlara imkan verir ki, iki üsulla, həm onların özlərinin birbaşa sahibkarlıqla məşğul olması formasında,

---

[34] Валявина Е.Ю... s.219

[35]Пирожкова, Н.А. Особенности бухгалтерско-правового оформления паломнической деятельности религиозных организаций // Москва: Православный экономический вестник «Приход». -2003, №11, -с.32-34

[36] Овчинникова, Ю.С…s.123

həm də hüquqi şəxs statuslu sahibkarlıq subyektləri yaratmaqla sahibkarlıqla məşğul olsun. Bu sahibkarlığın növü ilə bağlı sahə mütəxəssisləri arasında aşağıdakı fərqli mövqelər sərgilənir: Birincisi, dini qurumlar və onların təsis etdikləri hüquqi şəxslər yalnız onların yaranma məqsədlərinə nail olmağa xidmət edən və dini qurumlar üçün xarakterik olan fəaliyyət növləri ilə məşğul ola bilərlər[37]. İkincisi, təsis olunmuş kommersiya hüquqi şəxsləri universal hüquq qabiliyyətinə malik olduqları üçün onlar qanunla qadağan edilməmiş istənilən fəaliyyət növü ilə məşğul ola bilərlər[38]. Üçüncüsü, dini qurumlar sahibkarlıq fəaliyyəti ilə ümumiyyətlə məşğul olmalı deyildirlər, çünki bu, *"təşkilati-hüquqi forma kimi dini birlik formasından sui-istifadəyə", "dini ideologiyanın dəyərlərinin devalivasiyasına və vətəndaş cəmiyyətinin üzvü kimi dini birliklərə mənfi münasibətin formalaşmasına gətirib çıxara bilər"*[39]. Müəllif də birinci mövqenin tərəfdarları kimi belə hesab edir ki, dini qurumlar və onların təsis etdikləri hüquqi şəxslər onların yaranma məqsədlərinə uyğun olan və dini qurumlar üçün səciyyəvi olan DEAHQ-un 19-cu maddəsində sadalanan fəaliyyət növləri ilə məşğul ola bilərlər. Təcrübə göstərir ki, sahibkarlıq fəaliyyəti dini qurumların nizamnamə vəzifələrinin yerinə yetirilməsində və onların

---

[37] bax: 143. 372. Ивакова, О.В. Участие некоммерческих организаций в предпринимательской деятельности / Автореф. дис. кандидата юридических наук Санкт-Петербург. -2004. -28 с., с.21; Суханов, Е.А. Некоммерческие организации как юридические лица // Москва: Хозяство и право. 1998, №4. -с.11-17; Аюшеева И.З…с.181

[38] Дозорцев, В.А.. Юридические лица: итоги и перспективы кодификации и со совершенствования законодательства // Москва: Журнал российского права. 1998, -№10/11.- с.36-41; Валявина Е.Ю....s.67; 316. Овчинникова, Ю.С...s.143

[39] Чулюкова ,С.А., Общественные организации (объединения) и их роль в становлении гражданского общества. / - С.Чулюкова. Москва: Издательство "Академия Естествознания", - 2012 г., с.74

əmlakının formalaşmasında kifayət qədər əhəmiyyətli rol oynayır.

Dini qurumlar özləri bilavasitə sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda kommersiya qurumları üçün xarakterik olan leqal parametrlərə malik olmaları da məqsədə müvafiq olardı. Məsələn, kreditorların mənafelərini təmin etmək məqsədi ilə dini qurumların da bir sıra xarici ölkələrdə olduğu kimi minimum nizamnamə fonduna malik olmaları, biznes fəaliyyəti barədə müvafiq məlumatın yayılması yerinə düşərdi. Bu cür fəaliyyətin meyarları qanunvericiliklə müəyyən edilməmişdir. M.Y.Tixomirovun fikrincə yaxşı olardı ki, qeyri-kommersiya qurumunun nizamnaməsində onun məşğul ola biləcəyi sahibkarlıq fəaliyyətinin növləri sadalansın[40].

Dissertasiyanın üçüncü fəsli **"Dini qurumların yaradılması və onların fəaliyyətinə xitam verilməsinin bəzi hüquqi problemləri"** adlanır və dörd paraqrafdan ibarətdir. ***"Hüquqi şəxs yaratmaq hüququ birgə etiqad hüququnun vacib tərkib hissəsi kimi"*** adlanan ilk paraqrafda fərdlərin birgə dini etiqad azadlığının həyata keçirilməsinin əsas formatı kimi dini birliklərdə birləşmək hüququ və həmin birliklərin hüquq subyekti kimi tanınması problemləri araşdırılır. İnsanların müxtəlif məqsədlərlə, o cümlədən birgə etiqad niyyəti ilə birləşmək hüququnun əhəmiyyəti qeyd olunur və xüsusilə sonucunun zəruriliyi əsaslandırılır. Klassik dinlərin əksəriyyəti bir çox etiqad hərəkətlərinin (ayin, ritual və mərasimlərin) kollektiv şəkildə icra edilməsini vacib sayır[41]. Əslində din-dövlət münasibətləri baxımından və vicdan azadlığının hüquqi tənzimlənməsi baxımından hüquq subyekti kimi, dini qurum öz etiqadını fərdi şəkildə

---

[40] Комментарий к ФЗ «О некоммерческих организациях». / Ред. Тихомиров М.Ю. -Москва: 2009. -365 с., с. 86

[41] İslamda birgə ayinlərin əhəmiyyəti haqqında bax: Хамди, Дендюрен. Энциклопедия норм и правил Ислама. 1-е издание. / Д.Хамди. Стамбул. «Эркам», -2013. -828 с., с.385-388

həyata keçirən fiziki şəxsdən daha çox maraqlı və əlçatandır. Bir alman mütəxəssisinin yazığı kimi, əlbəttə vicdan azadlığı hər şeydən əvvəl fərdin işidir. Lakin bu azadlığın bir çox aspektləri tam şəkildə, yalnız qrupların və dini ittifaqların bir-biri ilə və dövlətlə münasibətlərini nəzərə aldıqda ortaya çıxır[42].

İnsanların dini etiqad azadlqlarını birgə həyata keçirmək hüququnun zəruriliyi beynəlxalq-hüquqi sənədlərdə, beynəlxalq məhkəmə qərarlarında demokratik ölkələrin milli qanunvericilik aktlarında, o cümlədən milli qanunvericiliyimizdə öz əksini tapmışdır. Bununla bağlı nəzəriyyəçilər də yekdil mövqe nümayiş etdirirlər. Məsələn, İ.B.Ponkinin inamına görə *"dini təşkilatlar kimi qeydiyyatdan keçə bilən dini birliklərdə birləşmək hüququ, bu cür birliklərin idarə olunmasında iştirak etmək hüququ"* birbaşa kollektiv dini etiqad azadlığına daxildir[43]. Dini birliklərin hüquqi şəxs statusu almaqla bir çox əhəmiyyətli imkanlar, o cümlədən, öz adından əmlaka sahib olmaq, ona sərəncam vermək, müəyyən edilmiş qaydada vergi və digər maliyyə xarakterli güzəşt və imtiyazlardan istifadə etmək, dövlətlə müvafiq qaydada saziş bağlamaq, müəyyən məhdudiyyətlərlə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, bir çox publik məkanlarda əvəzli qaydada ayin və mərasimlərin icrasına rəhbərlik etmək və s. hüquqlar əldə edirlər.

Bəzi dini təlimlərə aid olan dini təşkilatlar hüquqi şəxs statusunun əldə edilməsinə o qədər də can atmırlar. Onları buna məcbur etmək də dini etiqad azadlığının pozulması kimi qiymətləndirilməlidir. Bu baxımdan DEAHQ-un 12-ci maddəsinin 1-ci hissəsinin 1-ci cümləsinin *"bütün dini qurumlar yalnız müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alındıqdan və dini qurumlar dövlət reyestrinə daxil edildikdən son-*

[42] Изензее, Й., Кирхоф П. Государственное право Германии. Т. 2. - / Москва: 1994, 320 с., с.272
[43] Понкин И.В...s. 16-17

*ra fəaliyyət göstərə bilərlər”* müddəasının yeni redaksiyada verilməsi məqsədəmüvafiq hesab edilir.

Üçüncü fəslin ***“Dini qurumların təsis edilməsinin hüquqi xüsusiyyətləri. Nizamnamə əsas təsis sənədi kimi”*** adlanan ikinci paraqrafı dini qurumların yaradılmasının əsas mərhələlərindən biri olan təsisetmənin və onların ən vacib lokal aktı olan nizamnamənin hüquqi problemlərinə həsr edilmişdir. Qeyd edilir ki, dini qurumlar öz fəaliyyətləri zamanı nə qədər təsisçilərin təsirindən və müdaxiləsindən uzaq olsalar da və dövlətlə münasibətlərində muxtariyyət hüququndan istifadə etsələr də onların təsis olunması və hüquqsubyektliliyi əldə etmələri təsisçilərin iradəsinə və dövlətin ən azı məlumatlındırılmasına (qəbul etməsinə) bağlıdır.

DEAHQ-un müvafiq normalarının təhlili göstərir ki, dini qurumların yaradılması digər hüquqi şəxslərlə müqayisədə daha mürəkkəb və çoxmərhələli xarakter daşıyır. Bu da həmin təşkilatların təyinatı və yerinə yetirdikləri funksiyalarla bağlıdır. Dini təşkilatların yaradılmasının özünəməxsus xüsusiyyətləri bütün mərhələlərdə - onların təsis olunması, nizamnamələrinin hazırlanması və dövlət qeydiyyatına alınması prosesində özünü aşkar göstərir. Milli qanunvericiliyimiz dini qurumların təsisçilərinin sayı və tərkibi, təsis sənədləri, nizamnamə göstəriciləri, dövlət qeydiyyatı qaydaları və sair məsələlərlə bağlı digər hüquqi şəxslərlə müqayisədə xeyli fərqli normalar müəyyən edir. Üstəlik də dini qurumların növlərindən asılı olaraq bu normaların özünəməxsusluğu bir qədər də qabarıq görünür.

Nizamnamə hüquqi şəxsin hüquqi vəziyyəti, quruluşu, fəaliyyəti, hüquq və vəzifələri, idarə olunması, ləğvi, əmlakı, habelə qanunvericiliklə və hüquqi şəxsin səlahiyyətli orqanı tərəfindən müəyyən edilmiş digər məsələlərlə bağlı qayda və müddəaları özündə cəmləmiş, qanunla müəyyən edilmiş qaydada qeydə alınmış təsis sənədidir. DEAHQ-un 11-ci maddəsinin birinci hissəsinə görə dini qurumun hüquq qabiliyyətini mülki

qanunvericiliyə müvafiq surətdə müəyyən edən nizamnaməsi olur. MM, DEAHQ və digər qanunvericilik aktları həmin sənəddə əks olunmalı məlumatları imperativ normalarla müəyyən edir. *"Hüquqi şəxsin nizamnaməsi lokal normativ akt olduğu üçün onun məzmununa müvafiq tələblər irəli sürülür. Bu tələblərə riayət edilməsinə nəzarət etmək qeydiyyatçı orqanın funksiyalarından biridir və bu, o cümlədən xüsusi və publik mənafelərin zəruri balansını təmin edir"*[44].

Dini qurumun nizamnaməsinin özündə əks etdirməli olan məlumatların minimum siyahısı (DEAHQ-un 11-ci maddəsinin 3-cü hissəsi) qapalı xarakter daşımır və qanunvericiliyə zidd olmayan istənilən müddəanı nizamnamənin mətninə daxil etmək formal baxımdan mümkündür. Sadalanan məlumatlar isə bütün dini qurumlar üçün ümumi və məcburi xarakter daşıyır.

Qanunun bir sıra normaları birbaşa və ya dolayısı ilə bir dinə mənsub olan qurumların vahid təşkilati strukturda birləşməsini və onların arasında subordinasiya münasibətlərinin yaradılmasını vacib sayır. Dini qurumun nizamnaməsinin öz dini mərkəzinin (idarəsinin) nizamnaməsinə uyğun olması barədə tələb də, fikrimizcə bu subordinasiya münasibətlərinin bir qədər də konkretləşdirilməsi ilə bağlıdır. Bizim fikrimizcə, bu cür uyğunluq ilk növbədə dini qurumların eyni dinə mənsub olması reallığından irəli gələn eyni və ya oxşar fəaliyyət prinsiplərinin, idarəetmə strukturlarının və s. tətbiqi baxımından təmin edilməlidir.

Üçüncü fəslin ***"Dini qurumların dövlət qeydiyyatının hüquqi xüsusiyyətləri"*** adlanan üçüncü paraqrafında dini qurumlarının yaradılması prosesinin ən vacib mərhələlərindən biri olan dövlət qeydiyyatı və dövlət reyestrinə daxil edilmə ilə bağlı zəruri leqal hərəkətlərin həyata keçirilməsinin bəzi prob-

---

[44]Самойлова, М.В., К дискуссии о гражданско-правовом статусе религиозной организации // Тверь: Вестник Тв.ГУ, серия «Право», 2011, -выпуск 28 - с.41-56

lemləri tədqiq edilir. Dini qurumların qeydiyyatı ilə bağlı mövcud qanunvericilikdəki ziddiyyətlərə diqqət yönəldilir və onların aradan qaldırılması üçün təkliflər irəli sürülür[45].

Qeydiyyat mərhələsi dini təşkilatların bütövlükdə hüquqi statusunun, o cümlədən mülki-hüquqi vəziyyətinin müəyyən edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Demokratik və vətəndaş cəmiyyətində fəaliyyət göstərən hüquqi şəxslərin yaradılması və fəaliyyətinin hüquqauyğunluğu, şəffaflığı və açıqlığının qanunvericiliyə uyğun olaraq təmin olunması dövlətin üzərinə düşən əsas vəzifələrdən biridir. Bununla bağlı İnsan Hüquqları Avropa Məhkəməsinin (İHAM) qərarlarından birində əksini tapmış müddəa xarakterikdir: *"Dövlətin əmin olmaq hüququ var ki, birliklərin məqsəd və fəaliyyəti qanunvericiliyin müəyyən etdiyi qaydalara uyğundur"*[46]. Göstərilən məqsədlərə çatmağın isə ən səmərəli və sınanmış yollarından biri məhz dövlət qeydiyyatıdır. Lakin dövlətin dini qurumlara münasibətdə "leqallaşdırma" səlahiyyəti bu iki tərəf arasındakı münasibətlərə klassik hakimiyyət-tabeçilik xarakteri vermir. Bizim fikrimizcə burada dövlət iki qisimdə çıxış edir. Birincisi, "oyun qaydalarını" müəyyən edən qanunverici sifətində, ikincisi, həmin qaydalara uyğun olaraq dövlət qeydiyyatını həyata keçirən bərabər partnyor qismində.

---

[45] Həsənov Simran. Dini qurumların dövlət qeydiyyatına alınmasının bəzi hüquqi məsələləri-*"Bakı Dövlət Universitetinin hüquq fakültəsi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin andan olmasının 92-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda Beynəlxalq elmi-praktik konfransın Materialları".ıı cild, may 2015,* s. 246-249.

[46]"Sidiropulos və başqaları Yunanıstana qarşı"/ İHAM-nin 10.07.1998-ci il tarixli Qərarının 40-cı bəndi. *(İHAM-nin Qərarları qurumun rəsmi internet səhifəsindən (//http://hudoc.echr.coe.int/sites/eng/pages/search.aspx?i=001) götürlmüşdür).*

Digər hüquqi şəxslərdən fərqli olaraq dini icmaların dövlət qeydiyyatı iki mərhələdə həyata keçirilir. Birinci mərhələdə dini icmanı yaradan şəxslər və ya onların səlahiyyətli nümayəndələri tərəfindən həmin dini icmanın dini mərkəzinə (idarəsinə) bir sıra sənədlər təqdim edilir. Ikinci mərhələnin icrası üçün isə dini mərkəzlər (idarələr) həmin sənədləri öz təqdimatları ilə birlikdə dövlət qeydiyyat orqanına göndərirlər.

Dini qurumların hüquq subyekti kimi tanınması üçün digər hüquqi şəxslərin dövlət qeydiyyatı zamanı rast gəlmədiyimiz ikinci sənəd dini təlimin əsasları, o cümlədən dini icmanın yaranması tarixi, onun fəaliyyətinin forma və metodları, ənənələri, ailəyə, nikaha və təhsilə münasibət, həmin icmanın üzvlərinin hüquq və vəzifələrinə qoyulan məhdudiyyətlər barədə məlumatlardan ibarətdir. Bəzi müəlliflərin fikrincə adı çəkilən məlumatları özündə əks etdirən sənədi də təsis sənədinə bərabər tutmaq olar[47]. Digərləri isə göstərilən məlumatların dövlət orqanlarına təqdim olunmasının əsaslılığını şübhə altına alırlar[48].

İHAM dini icmanın müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan hüquqi şəxs kimi tanınmasını da mümkün hesab edir. Yunanıstanda Kaneya kilsəsi uzun illər boyu qeydiyyatdan keçmədən hüquqi şəxsin bütün hüquqlarından istifadə etmiş və İHAM da onu məhz hüquq subyekti kimi tanımışdır. Bu işdə maraqlı olan həm də budur ki, Məhkəmə Kilsənin hüquqsubyektliliyini tanıyarkən kanonik hüququn da normasını nəzərə almışdır. Belə ki, sənədlərdən də göründüyü ki-

---

[47]Аюшеева И.З...s.90

[48]Карпушкин, А.В. Конституционно-правовые аспекты религиозной толерантности во взаимоотношениях государства с религиозными объединениями // Известия высших учебных заведений. Поволжский регион. Общественные науки. Политика и право. -№4, -2008 - с. 91-95

mi ərizəçi Kilsə məhz bu normalar arasında yaradılmış və Məhkəmə bu faktı nəzərə almışdır[49].

Dövlət bu və ya digər dini təlimə aid olan dini təşkilatı qeydə alarkən onun faydalılığını, ədalətliliyini təftiş etməyə və bu nöqteyi-nəzərdən hüquqi şəxs statusu verilib-verilməməsi məsələsini həll etməli deyildir. Beynəlxalq təcrübə göstərir ki, bu zaman təsis sənədləri daha çox formal tələblər baxımından nəzərdən keçirilir. Bəzi Şərqi Avropa və postsovet ölkələrində isə sənədlər məzmunca da araşdırılır. Yunanıstanda isə hətta yeni kilsələrin qeydiyyatı zamanı pravoslav yepiskopunun səs-vermə hüququ var[50].

Üçüncü fəslin dördüncü paraqrafı ***"Dini qurumların fəaliyyətinə xitam verilməsinin hüquqi cəhətləri"*** adlanır və adı çəkilən hüquq subyektlərinin ləğvi və yenidən təşkili ilə bağlı problemlərin tədqiqinə həsr edilmişdir. Qeyd olunur ki, dini təşkilatların fəaliyyətinin bütün sahələri kimi burada da onların özünəməxsus xüsusiyyətləri özünü göstərir. Bu baxımdan ilk növbədə belə bir hala diqqət yönəldilir ki, dini qurumların fəaliyyətinə yenidən təşkil olunmaqla xitam verilməsi ilə bağlı DEAHQ-da heç bir xüsusi qayda nəzərdə tutulmayıb. Halbuki, bu təşkilatların konfessional mənsubiyyəti, təyinat və fəaliyyət xüsusiyyətləri və digər amillər yenidən təşkilin tətbiqi prosesinə əhəmiyyətli dərəcədə təsir göstərir və MM-in bütün hüquqi şəxslər üçün müəyyən etdiyi normaların tətbiqini xeyli dərəcədə çətinləşdirir. Belə bir maraqlı hala diqqət yönəldilir ki, uzun sürən diskussiyalardan sonra Rusiya, habelə Türkiyə qanunve-

[49] Kanea Katolik Kilsəsi Yunanıstana qarşı / İHAM-ın 16.12.1997-ci il tarixli Qərarı

[50] Koul Dram. Freedom of Religion or Belief: Laws Affecting the Structuring of Religious Communities. ((Electronic resourse))| 1999, p.19. (http://www.refworld.org.ru/publisher,OSCE,,,52736bcc4,0.html)

riciliyində dini qurumların yenidən təşkili ilə bağlı bəzi xüsusi qaydalar öz əksini tapmışdır[51].

Bəzi müəlliflərin dini qurumların yenidən təşkilinin zəruriliyi, yaxud faydasızlığı ilə bağlı yanaşması şərh edilir və qeyd olunur ki, bir çox hallarda bu, nəinki məqsədəmüvafiq, hətta qaçılmaz olur. Məsələn, bir inzibati vahid dairəsində dindarların sayının əhəmiyyətli dərəcədə artdığı zaman həmin dairədə fəaliyyət göstərən dini icmadan ayrılmalar və yaxud onun bölünməsi baş verə bilər. Əks proses getdikdə isə (dindarların sayı azaldıqda) onların birləşməsi və yaxud bir icmanın digərinə qoşulması arzu olunan haldır. Bu və digər amillər nəzərə alınmaqla dini qurumların yenidən təşkili məsələlərini tənzimləyən normaların DEAHQ-a daxil edilməsinin məqsədəmüvafiqliyi əsaslandırılır.

Yenidən təşkildən fərqli olaraq dini qurumların ləğv edilməsi üçün müəyyən edilmiş hüquqi əsaslarda bu hüquqi şəxslərin özünəməxsus cəhətləri daha aşkar görünür. Bu cür yanaşma özünü xüsusilə dini qurumların ləğvi ilə bağlı məhkəməyə müraciət etmək üçün əsasların siyahısında qabarıq göstərir. Belə ki, burada digər hüquqi şəxslərə münasibətdə rast gəlmədiyimiz bəzi fərqli hallar nəzərdə tutulmuşdur.

Nəzərə almaq lazımdır ki, ləğvetmə hüquqi şəxsə tətbiq edilən "ən yüksək cəza"dır və bu barədə qərar qəbul etmək bütün hallarda dini qurumlarda birləşmiş şəxslərin hüquqlarının bu və ya digər dərəcədə pozulmasına gətirib çıxaracaqdır. Buna görə də, fikrimizcə hər bir qanun pozuntusu dini qurumun fəaliyyətinə xitam verilməsi üçün formal əsas sayılsa da, məhkəmə işin bütün hallarını araşdırmalı və vicdan azadlığı prinsipinin təmin olunması üçün zəruri tədbirləri görməlidir. Bu nor-

---

[51]bax: Гражданский Кодекс Российской Федерации / Принят в 21.10.1994 году - Москва: «Гарант» 2016 г.; Türk Ticaret Kanunu ((Elektron resurs)) / Ankara, - 13.01.2011-ci ildə qəbul edilmişdir (mevzuat.gov.tr)

mada pozuntuların mütəmadi və (və ya) kobud xarakter daşıması şərtinin müəyyən edilməsi yerinə düşərdi.

**"Dini qurumların ayrı-ayrı növlərinin mülki-hüquqi vəziyyətinin xüsusiyyətləri"** adlanan dördüncü fəsil beş paraqrafdan ibarətdir. Birinci paraqrafda ***dini qurumların mülki-hüquqi təsnifatı problemləri*** araşdırılır, bu cür bölgünün həssas məqamları təhlil edilir, burada istənilən düşünülməmiş addımın dindar insanların adekvat reaksiyasına səbəb ola biləcəyi qeyd edilir və Maks Müllerin belə bir fikrinə də haqq qazandırılır ki, *"... biz müxtəlif dini dailektlərin qənaətedici təsnifatını tərtib edə bilməsək, etiraf etməliyik ki, din haqqında elm həqiqətən mümkün deyildir*[52]. Mülki qanunvericiliyimizə görə bu təşkilatların hüquqi şəxslərin ayrıca təşkilati-hüquqi forması olub ya olmaması sualına cavab axtarılır, onların hüquqi şəxslərin içində tutduğu yeri dəqiq müəyyən etməyə cəhd göstərilir. Hüquqi şəxslərin təşkilati hüquqi formasının nəzəri əsaslarının təhlili və dini qurumların spesifik xüsusiyyətlərinin təhlil əsasında sonuncuların ayrıca təşkilati hüquqi forma olması nəticəsinə gəlinir[53].

Dini təşkilatların mülki-hüquqi statusuna və dolayısı ilə təsnifatına təsir göstərən əsas məqamlardan biri onların üzvləri (iştirakçıları) ilə hüquq subyekti kimi həmin qurumlar arasında hüquqi münasibətlərin xüsusiyyətləridir. Bu cür münasibətlərin xarakteri baxımından dini qurumların korporativ hüquqi şəxs və ya idarə (unitar qurum) qruplarına aid olmasının müəyyən edilməsi də onların hüquqi şəxslər içərisində yerinin dəqiqləş-

---

[52] Классики мирового религиоведения: антология в 2-х т/пер. с.анг., нем. и фр. / Сост. и общ ред. Красников А.Н., -Москва: Канон+ -1996. Т.1,-496 с., с.8

[53]Həsənov Simran. "Dini qurumların ləğv edilməsi zamanı onların əmlakına sərəncam verilməsinin bəzi hüquqi xüsusiyyətləri" *"Beynəlxalq hüquq və inteqrasiya problemləri", №4, 2015, 124-128*

dirilməsi üçün faydalı olardı.[54] Dini qurumların təsis sənədlərinin təhlili və idarəetmə təcrübəsi göstərir ki, onların yerli qurumları-dini icmalar qismən korporativ prinsiplər əsasında fəaliyyət göstərirlər. Dini mərkəz və idarələr isə öz hüquqi mahiyyətlərinə görə korporasiyalardan daha uzaqdırlar. Belə ki, bu qurumların öz təsisçiləri (üzvləri) ilə münasibətlərinin xarakteri, habelə idarəetmə modelləri onları daha çox idarə kimi qiymətləndirməyə imkan verir.

Məlumdur ki, hər bir düzgün və tətbiqi əhəmiyyəti olan təsnifat üçün ilk növbədə onun məntiqi tərtib edilmiş və bitkin əsaslarını müəyyən etmək lazımdır. *"İstənilən elmi təsnifatın dəyəri predmet haqqında biliklərin sistemləşdirilməsindən ibarətdir ki, bunsuz da bu biliklərin nə sonrakı inkişafı, nə də onların tətbiqi mümkün deyildir"*[55]. Bu baxımdan dini hüquqi şəxslər müxtəlif meyarlar əsasında təsnifatlaşdırılırlar: təşkilati-hüquqi forma, mülkiyyət forması, yaradılması və fəaliyyət məqsədləri, təsisçilərin tərkibi və onların hüquqi şəxslərlə qarşılıqlı münasibətləri (əşya, korporativ və ya öhdəlik hüquqları). A.N.Sadkov bu siyahını bir qədər də genişləndirir: *"ərazi fəaliyyəti sferasına görə, millətə görə, üzvlüyə və yaranma üsuluna görə, fəaliyyət məqsədlərinə (funksiyalarına) görə, təsisçilərin tərkibinə görə, təsisçilərin dini təşkilatlara verdikləri əmlaka olan hüquqlarının həcminə görə, əmlakın əlahiddələşdirilməsi üsuluna görə*"[56].

Dördüncü fəslin ikinci paraqrafı ***"Dövlət-din münasibətlərinin dini təşkilatların mülki-hüquqi təsnifatına təsiri"*** adlanır. Qeyd olunur ki, bu gün hər bir ölkə qanunvericiliyi və hü-

---

[54] Həsənov Simran. Dini qurumların mülki-hüquqi statusunun... *335-343*

[55] Гражданское право. Учебник. В 3-х томах. Т.1. / Ред. Сергеев А.П. и Ю.К.Толстой. -Москва: «Проспект». 2006, - 775 с., с. 166

[56] Садков А.Н. Религиозные организации как субъекты гражданского права. / Автореф. Дис. кандидата юридических наук. Волгоград. -2004, 32 с., с.12

quq praktikası dini təşkilatların təsnifatını müəyyənləşdirərkən mövcud gerçəkliklərlə, o cümlədən həmin ölkədəki, bəzən, hətta regiondakı tarixi, iqtisadi, mədəni, sosial və siyasi amillərlə, *"ardıcıllarının sayı, dini ənənələrin mədəniyyət və dövlətyaradıcı (əmələ gətirici) rolu, siyasi loyallığı, sosial adaptivliyi (uyğunlaşması) səviyyəsi və digər meyarlarla"*[57] hesablaşmağa məcburdurlar. Bu cür meyarları nəzərə almaqla müəyyən edilən təsnifatlar bəzi hallarda bütün dinlərə bərabər yanaşmanı bəyan etməyə, bəzən isə bu və ya digər dinin (dinlərin) üstün hüquqi vəziyyətini təsbit etməyə, onun üçün (onlar üçün) güzəşt və imtiyazlar müəyyən etməyə gətirib çıxarır. Bu cür hallarda standart və şablonlardan istifadə etmək səmərə vermir. Deyilənlərin məntiqi nəticəsi olaraq xarici ölkələrdə nə din-dövlət münasibətlərinin, nə də dini təşkilatların təsnifatının universal və mükəmməl modelinin işlənib hazırlanması mümkün hesab edilmir. Buna görə də ümumiləşdirmə aparmaq da çətindir. Bununla belə, xarici ölkələrin qanunvericiliyi və hüquq tətbiq təcrübəsində konfessional təsnifat (xristian, islam, yəhudi və s.) eyni əsaslarla aparılsa da həmin qurumların rəsmi-qeyri rəsmi, ənənəvi-qeyri-ənənəvi, dövlət-qeyri dövlət, publik-xüsusi və digər adlarla sonrakı bölgüsünə də rast gəlmək olur ki, belə bölgülər zamanı da onların mülki-hüquqi bərabərliyini sonadək təmin etmək mümkün olmur.

Koul Dramın təklif etdiyi iki ölçülü sistem də hüquqi şəxslərin xüsusi və ya ümumi (publik) hüququn subyektlərinə aid olunması təsnifatına söykənir. Bu bölgüyə görə xüsusi hüquqa aid dini təşkilatlar (bütün ictimai birliklər üçün müəyyən edilmiş qaydada yaradılan və fəaliyyət göstərən dini təşkilatlar)

---

[57] Журавский, А. Религиозная традиция в условиях кризиса секуляризма. ((Электоонный ресурс)) / Москва: Континент. 2004, №120, URL: https://magazines.gorky.media/continent/2004/120/religioznaya-tradicziya-v-usloviyah-krizisa-sekulyarizma.html

“baza səviyyəsi”ndə və ümumi hüquqa aid olanlar isə “ali təşkilati formada” mövcud olurlar (dövlətlə saziş bağlamış İspaniya, Polşa və İtaliyadakı katolik kilsələri, Avstriyadakı rəsmi kilsələr, Almaniyadakı ictimai korporasiyalar). Bu cür bölgünü K.Dram o halda normal qəbul edir ki, bu, dini qurumların qanun qarşısında bərabərliyi prinsipinə zidd olmasın[58]. Norman Doenin fikrincə dövlət-din münasibətlərinin və qanunvericilik sisteminin xarakterindən asılı olaraq, dini təşkilatların Avropa dövlətləri tərəfindən “tanınması” dörd əsasla həyata keçirilir: konstitusion, statut (qanun), müqavilə və qeydiyyat. Buna uyğun olaraq, dini icmalar da göstərilən 4 qrupda təsnifatlaşdırıla bilər[59]. Bu bölgünü milli qanunvericiliyimizə tətbiq etsək, ölkəmizdə adı və bəzi hüquqi parametrləri qanunla müəyyən edilən QMİ-ni, hüquqi statusu daha çox Vatikan və AR arasında bağlanmış müqavilə ilə tənzimlənən Katolik icmasını və qeydiyyatlı dini qurumları fərqləndirə bilərik. Göründüyü kimi ölkəmizdə milli (dövlət) dini müəyyən edilmədiyi üçün konstitusion dini təşkilat yoxdur.

Dini etiqad və vicdan azadlığının birgə gerçəkləşdirildiyi ilkin və əsas korporativ həlqə dini icmalar hesab edilir. Buna görə də tədqiqat işinin bütün bölmələrində birbaşa və ya dolayısı ilə bu qurumların mülki-hüquqi vəziyyətinə aid araşdırmalara yer verilməsi ilə yanaşı dördüncü fəslin “**Dini etiqad azadlığının əsas həyatakeçmə həlqəsi kimi dini icmaların mülki-hüquqi statusu”** adlanan üçüncü paraqrafı bütövlükdə həmin qurumlara həsr edilmişdir. Burada dini icmaların leqal əlamətlərinin təhlili əsasında onların digər dini qurumlarla oxşar və fərqli cəhətləri araşdırılır, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində konkret təkliflər irəli sürülür.

---

[58] Koul Dram. Freedom of Religion or Belief: Laws Affecting the Structuring of Religious Communities. ((Electronic resourse))| 1999, p.19, (http://www.refworld.org.ru/publisher,OSCE,,,52736bcc4,0.html)

[59] Norman, Doe... s.94-98

İlk və ən vacib əlamətlərdən biri hesab edilən dini icmaların yalnız könüllülük əsasında yaradılması xüsusiyyəti önə çəkilir və onun ilk növbədə beynəlxalq qanunvericilik aktlarında, habelə ölkə konstitusiyalarında təsbit olunmuş dini etiqad və vicdan azadlığı prinsiplərindən qaynaqlandığı qeyd olunur.

Nəzərə almaq lazımdır ki, bu prinsipin pozulması müvafiq məsuliyyətə, o cümlədən icmanın ləğvinə səbəb ola bilər. İHAM-nin 25.05.1993-cü il tarixli "Kokkinas Yunanıstana qarşı" işində də bu məqama xüsusi diqqət yetirilir. Həmin Qərarda İHAM *"xristian şəhadəti ilə yersiz prozelitizm ("öz dininə mümkün qədər daha çox tərəfdar cəlb etmək cəhdi" – S.H.) arasında fərqin nəzərə alınması*"nın vacibliyi vurğulanır[60].

"Dini tələbatın ödənilməsi məqsədi" də dini icmaların müəyyənedici əlamtlərindən hesab edilir. Baza ifadəsi olan "din"in anlayışında vahid yanaşma olmadığı kimi onunla bağlı tələbat da konkret hüquqi məzmundan məhrumdur. Dini tələbat inanan insanların tipik tələbatlarından biridir, o, əksolunma fərdiliyinə baxmayaraq, insanların şüuru əsasında formalaşır. *«Dini tələbatlar dinin təkamülü gedişində formalaşır və dəyişir, müxtəlif dinlərdə və konfessiyalarda fərqlidir, dini birliyin tipindən və diniliyin tipindən asılıdır"*[61].

Dini icma dindar şəxslərin dini qurumu hesab edilir. Təbiidir ki, icma təsis edilərkən ora yalnız ibadət etmək və dini tələbatı ödəmək məqsədi güdən şəxslər, yəni dindarlar daxil olacaqlar. Buna görə də şəxsin dindar olub-olmamasını dövlət qeydiyyat orqanları tərəfindən yoxlamaq və ya bunun sənədlə sübut edilməsini tələb etməyə heç bir ehtiyac qalmır. (Dini icmaların dövlət qeydiyyatına alınması zamanı da belə bir məsələnin yoxlanması üçün hər hansı bir sənəd və ya məlumatın tə-

---

[60]Kokkinas Yunanıstana qarşı / İHAM-ın 25.05.1993-cü il tarixli Qərarı.

[61]Куницын, И.А. Правовой статус религиозных объединений в России: исторический опыт, особенности и актуальные проблемы. / И. А.Куницын.- Москва: правосл. дело: отчий дом, -2000. -462 с., с.80

ləb edilməsinə də yol verilmir). Lakin icmanın nizamnaməsində icmaya üzvlük üçün tələblər siyahısında həmin şəxslərin müvafiq dinə etiqad etməsi haqqında və dindar olmayan, həmin dinin kanonik qaydalarına riayət etməyən, yaxud icmanın mənsub olmadığı dinə etiqad edən şəxslərə həmin icmadan çıxarılması da daxil olmaqla təsir tədbirlərinin tətbiqi ilə bağlı müddəalar nəzərdə tutula bilər.

DEAHQ-un tələbinə görə dini icma azı əlli nəfər şəxs tərəfindən yaradılmalıdır. Dini icmaların fəaliyyət təcrübəsi göstərir ki, dini icmaların üzvlüyü sabit xarakter daşımır. İlkin 50 nəfər qısa müddətdən sonra "əriyir" və müxtəlif qruplaşmalar yaranır[62]. Bəzən icmanın idarə olunması təsisçilərdən və müvafiq məzhəb tərəfdarlarından ibarət olmayan bir neçə nəfərin əlində cəmləşir.

Bu da icmadaxili konfliktlər və qarşıdurmalara səbəb olur. Ona görə hər il 50 nəfərin siyahısının qeydiyyat təşkilatına yenidən təqdim edilməsi barədə qanunvericiliyə imperativ normanın daxil edilməsi məqsədəmüvafiq olardı.

Bəzi müəlliflər haqlı olaraq belə hesab edirlər ki, bir fiziki şəxs yalnız bir dini icmanın üzvü olmalıdır[63]. Bu cür məhdudiyyət bəzi ölkələrin qanunvericiliyində də təsbit edilmişdir (məsələn, Avstriyada və Türkmənistanda). Həqiqətən də bu cür qayda bir şəxsin eyni konfessiyaya məxsus olan bir neçə dini icmaya üzv yazılmaqla süni şəkildə həmin dinin tərəfdarlarının sayı barədə təhrif olunmuş təəssürat yaratmağın qarşısını alardı.

---

[62]Себенцов, Андрей. Противоречия в законодательстве о свободе совести. Религия в светском обществе ((Электронный ресурс)) // Публикации. Сб. "Преодолевая государственно - конфессиональные отношения" 2004, (http://www.sova-center.ru/religion/publications/state-confessional/2004/02/d1716/ )

[63]bax: Садков А.Н…с.12

Dini etiqad və vicdan azadlığının gerçəkləşdirilməsində, din-dövlət münasibətlərinin formalaşmasında və dini təşkilatların yaradılması və fəaliyyətinin təşkilində dini mərkəz və idarələr çox vacib funksiyalar icra edirlər. Dövlət dini təşkilatlarla əlaqələrini, bir qayda olaraq məhz bu qurumlar vasitəsi ilə qurur, dini icmaları hüquq subyekti kimi tanıyarkən və ləğv edərkən onların rəyini öyrənir (təqdimatlarını alır), bəzən yerli icmaların mərkəzi idarələrdə birləşməsini məcburi hesab edir. Dördüncü fəslin **"Dini mərkəz və idarələrin mülki-hüquqi vəziyyətinin problemləri"** adlanan dördüncü paraqrafı da məhz bu dini təşkilatlarla bağlı qanunvericilik aktlarında və hüquqtətbiq prosesində ortaya çıxan problemlərin araşdırılmasına həsr edilmişdir.

Dini mərkəz və idarələrin hüquqi vəziyyətinin tənzimlənməsi keyfiyyəti və onların öz fəaliyyətlərini qurmaq qabiliyyəti bəzən bütöv bir ölkə ərazisində müəyyən bir dini konfessiyanın bütövlükdə vəziyyətini, o cümlədən həmin dinə aid olan icmaların mülki-hüquq qabiliyyətinin səmərəliliyini səciyyələndirir[64]. Bütün bunlar, təbiidir ki, həm dini mərkəz və idarələrin, həm də orada birləşən digər dini qurumların mülki-hüquqi statusuna əhəmiyyətli dərəcədə təsir göstərir.

Muxtariyyət prinsipləri əsasında fəaliyyət göstərən dini qurumların digər növləri kimi dini mərkəz və idarələrin də mülki-hüquqi vəziyyəti milli qanunvericiliyimizlə kifayət qədər ətraflı və hərtərəfli tənzimlənməmişdir. DEAHQ-un müddəaları dini qurumların mərkəzləri, ittifaqları, idarələri və birlikləri haqqında məsələləri sonadək sistemli və ardıcıl şəkildə tənzimləməyə, onlar arasındakı fərqləri müəyyən etməyə imkan vermir. Qanunun "Dini mərkəzlər və idarələr" adlanan 9-cu maddəsində yalnız islam dini qurumlarının mərkəzi olan QMİ və qeyri-islam dini qurumlarının xaricdə olan təşkilati

---

[64]bax:Силантьев Р.А. Совет Муфтиев России: история одной фитны. / Р.Силантьев. -Москва: РИСИ, -2015.-628 с., с.89

mərkəzləri haqqında cüzi normalar əks olunur. Bununla bağlı ciddi nəzəri araşdırmaların aparıldığını da söyləmək düzgün olmazdı.

Dini mərkəz və idarələr bir qayda olaraq, dini qurumların (icma, dini təhsil müəssisələri, onların birlikləri) könüllü, yaxud məcburi birləşməsi nəticəsində yaranır. Birinci üsulla birləşmə ölkəmizdəki qeyri-islam qurumları üçün xarakterikdir. Bu, DEAHQ-un 9-cu maddəsinin ikinci hissəsinin dispozitiv ruhundan irəli gəlir. İslam dini qurumları üçün isə bu cür birləşmə məcburi xarakter daşıyır. Onlar öz tarixi islam dini mərkəzində - QMİ-də birləşirlər. Bu cür normanın müəyyən edilməsi həm ölkəmizin geosiyasi durumundan irəli gələn reallıqlarla, həm də Qafqaz müsəlmanları qurultayının qəbul etdiyi qərarı nəzərə almaq zərurətindən irəli gəlir. (Dini qurumların QMİ-də birləşməsi məcburiliyi həmin qurumların nümayəndələrinin qurultayında qəbul edilmiş İdarənin nizamnaməsində nəzərdə tutulmuşdur). Əlavə edək ki, bu cür birləşmənin məcburiliyi dini qurumların hüquqsubyektliliyinə, demək olar ki, heç bir xələl gətirmir.

Təşkilati mərkəzləri xaricdə olan qeyri-islam dini qurumları öz fəaliyyətində AR-nın qanunvericiliyinə zidd olmayan hallarda həmin mərkəzlərin nizamnamələrini rəhbər tuta bilərlər. Göründüyü kimi burada milli qanunvericiliyimizin üstünlüyü prinsipi gözlənilir. Bütün mübahisə və kolliziyaların yarandığı hallarda ilk növbədə məhz AR qanunvericiliyinin müddəaları tətbiq edilir. Bu müddəalara zidd olmayan istənilən məsələnin tənzimlənməsində, o cümlədən yerli qurum və xarici mərkəzin nizamnamələri arasında kolliziya yarandığı hallarda sonuncuların nizamnaməsinin göstərişləri rəhbər tutulur.

Dini qurumların hər hansı bir əsasla birlik yaratmaq hüquqları milli qanunvericiliyimizdə nəzərdə tutulmamışdır. Bununla belə nəzərə almaq lazımdır ki, Qanunun 7-ci maddəsində dini qurumların birlikləri dini qurumların növlərindən biri he-

sab edilir və dini qurumun dini birliyin təşkilati strukturunda yeri onun nizamnaməsində göstərilməlidir (11-ci maddənin II hissəsinin 2-ci bəndi). Buradan da belə bir nəticəyə gəlmək olar ki, qanunverici dini birlik ifadəsi ilə dindar insanların deyil, həmin şəxslərin təsis etdikləri, habelə digər dini qurumların birliklərini nəzərdə tutur. Lakin bu birliklərin yaranması, fəaliyyəti və ləğvi ilə bağlı Qanunda heç bir əlavə norma nəzərdə tutulmamışdır. Fikrimizcə, bu cür birliklərin yaradılması bir dinə məxsus icmalar tərəfindən, həm də müxtəlif dini icmalar tərəfindən ümumi məqsədlə (xeyriyyəçilık, ədəbiyyat nəşri və s.) mümkün ola bilər.

Dördüncü fəslin ***"Dini təhsil müəssisələri dini qurumların xüsusi növü kimi"*** adlanan beşinci paraqrafı dini təhsil müəssisələrinin mülki-hüquqi vəziyyətinin araşdırılmasına həsr edilmişdir. Qeyd olunur ki, son dövrlərdə qloballaşma, genişhəcmli miqrasiya və inteqrasiya nəticəsində bütün dünyada, xüsusilə böyük sürətlə sekulyarlaşan və dini-etnik mənzərəsi əhəmiyyətli dərəcədə dəyişən Avropada dini təhsillə bağlı diskussiyaların mərkəzi mövzularından biri dini təhsil müəssisələrinin yaradılması və fəaliyyətinin hüquqi tənzimlənməsi ilə bağlıdır. Bununla belə dini təhsilin və dini təhsil müəssislərinin fəaliyyətinin hüquqi tənzimlənməsi sahəsində vahid beynəlxalq təcrübə formalaşmamışdır. Bu cür vəziyyətin yaranmasına din-dövlət modellərinin müxtəlifliyi, dini və etnik müxtəlifliklər, tarixi və hüquqi ənənələr təsir göstərir.

Vətəndaşların dini təhsil almaq hüququnu və bu hüququn gerçəkləşdirilməsi məqsədi ilə dini mərkəz və idarələrin dini təhsil müəssisələri yaratmaq hüququnu nəzərdə tutan DEAHQ da həmin qurumların hüquqi vəziyyətləri və fəaliyyəti ilə bağlı təcrübədə ortaya çıxan çoxşaxəli ictimai münasibətlərin cüzi bir hissəsini tənzimləyir. Dinin dövlətdən ayrı olması və dini qurumların muxtariyyəti prinsipi baxımından bu cür yanaşma kifayət qədər məntiqi görünür. Mürəkkəb, həssas və spesifik

bir sahə olan dini təhsil sisteminin tənzimləməsi daha çox dini mərkəz və idarələr, habelə məktəblərin özləri tərəfindən müəyyən edilən qaydalara uyğun olaraq həyata keçirilməlidir.

Dini təhsil müəssisələri dini qurumların bir növü hesab edildiyi üçün dini qurumlarla bağlı müəyyən edilmiş bütün ümumi xarakterli normalar, o cümlədən onların mülki-hüquqi statusu haqqında müddəalar dini təhsil müəssisələrinə də aid edilməlidir. Bununla yanaşı, təhsil müəssisələrinin yerinə yetirdikləri funksiyaların xüsusiyyətlərini nəzərə alan qanunverici onların mülki-hüquqi statusu ilə bağlı bəzi fərqli normalar da müəyyən edir. Bunlar həmin qurumların yaradılması və fəaliyyətinin bütün mərhələlərində az və ya çox dərəcədə özünü göstərir. Bu cür normalardan biri bundan ibarətdir ki, din xadimləri və dini ixtisaslar üzrə digər kadrlar hazırlanması üçün dini təhsil müəssisələrini yalnız mərkəz və idarələr yarada bilər (DEAHQ-un 10-cu maddəsinin 1-ci hissəsinin birinci cümləsi). Fikrimizcə, bu məhdudiyyət dini təhsilin təşkilinin son dərəcə məsuliyyətli bir fəaliyyət növü kimi təsadüfi şəxslərin əlinə düşməsinin qarşısının alınması məqsədi ilə müəyyən edilmişdir.[65] Dini mərkəz və idarələrin AR-nda qeydə alınıb-alınmaması ilə bağlı Qanun hər hansı bir qeyd-şərt müəyyən etməmişdir.

DEAHQ-un dini təhsil sahəsində müəyyən etdiyi əhəmiyyətli məhdudiyyətlərdən biri də bundan ibarətdir ki, hər bir dini mərkəz və idarə birdən çox ali dini tədris müəssisəsi yarada bilməz. Lakin qanunverici bir neçə mərkəz və (və ya) idarənin birgə ali dini təhsil müəssisəsi təsis etməyini bu limitlə əhatə olunub-olunmamasına aydınlıq gətirmir. Qanunun müəyyən etdiyi say məhdudiyyəti yalnız ali dini məktəblərlə bağlıdır. Dini

---

[65] Həsənov Simran. Qafqaz Müsəlmanları İdarəsinin islam maarifləndirməsində rolu: hüquqi aspektlər”- *“AMEA, Qafqaz Müsəlmanları İdarəsi. İslam maarifçiliyi və müasir dövr. Beynəlxalq elmi konfransın materialları”. aprel, 2015. s. 115-124*

mərkəz və idarələr Qanunda göstərilən məqsədlərlə ("din xadimləri və dini ixtisaslar üzrə digər kadrlar hazırlanması üçün") ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili verməkdən ötrü istənilən sayda dini tədris müəssisələri yarada bilərlər.

Tədqiqat işinin **"Dini qurumların əmlak-hüquq məsələləri"** adlanan beşinci fəsli dörd paraqrafdan ibarətdir. Birinci paraqrafda ***dini qurumların əmlakının formalaşması mənbələrinin əsas hüquqi cəhətləri*** araşdırılır. Tanınmış mütəxəssis A.İ.Kunitsının haqlı olaraq söylədiyi kimi *"dini təşkilatlar birgə etiqad və dini (mənəvi) dəyərlərin yayılması, buna uyğun olaraq fəaliyyət məqsədilə, başqa sözlə dini ehtiyacların təmin olunması üçün yaradılsalar da, onların fəaliyyəti təkcə mənəvi sahədə deyil, həm də maddi sferada baş tutur"*[66]. *"Onlar (dini qurumlar-S.H.) tərbiyə, təhsil, səhiyyə, sosial yardım sahəsində çoxsaylı ixtisaslaşdırılmış müəssisələrə, iri xüsusi və bölüşdürülən vəsaitlərə malikdirlər və sosial sahədə böyük işlər görürlər, əsaslı tikinti apararaq və müvafiq işçi heyəti hazırlayaraq mərkəzi və yerli büdcələri qismən xərclərdən azad edirlər"*[67]. Bu cür mühüm funksiyaları həyata keçirməli olan dini qurumların müvafiq maddi təminat məsələləri də qanunvericiliyin tənzimlədiyi münasibətlərin içində əhəmiyyətli yerlərdən birini tutur.

Dini qurumların əmlakının formalaşması mənbələrinin hüquqi təhlilini təqdim edərkən onların ikisinə-ianə və dövlət yardımına xüsusi diqqət yetirilməlidir. İanə verilməsi şərtlərinin MM-in bağışlama müqaviləsinin müddəaları ilə müqayisəli təhlili əsasında onların fərqli və oxşar cəhətləri üzə çıxarılır, daha uğurlu hüquqtətbiq prosesinin təmin olunması üçün qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində konkret təkliflər verilir. İanə ilə bağlı müddəaların əhəmiyyətini və məntiqiliyini vurğulamaqla bərabər qeyd edilir ki, onlar dini qurumların ianə

[66]Куницын, И.А… дис. с.184.
[67]Аюшеева И.З... s.126

almaq və ianə verənlərin ianə vermək hüquqlarını ciddi çərçivəyə salmışdır. Belə ki, həmin normalara görə dini qurum qəbul etdiyi və ya vəd edilən ianə müqabilində, ianə verən şəxsə və ya hər hansı digər şəxsə birbaşa, yaxud dolayı yolla maddi və sair nemət, hər hansı imtiyaz və ya güzəşt verə, belə təkliflə çıxış edə və ya belə vəd verə bilməz. Dini quruma ianə verən şəxs isə verdiyi və ya verəcəyi ianə müqabilində özü və ya üçüncü şəxslər üçün birbaşa, yaxud dolayı yolla maddi və sair nemət, hər hansı imtiyaz və ya güzəşt tələb edə və ya qəbul edə bilməz, belə təklifə və ya vədə razılıq verə bilməz. Əlbəttə, bu normaların tətbiqi ilə əlaqədar ianələr üçün müraciət və onların alınması sahəsində müəyyən qaydalara riayət etmək zərurəti yaranacaq. Belə ki, məsələn, dini qurumlar ianə toplanmasının məqsədini elan etmək hüququna malik olsalar da, görüləcək işlə (göstəriləcək xidmətlə) bağlı konkret şəxslərlə, xüsusilə ianə verənlərlə hüquqi münasibətlərini bu normalar əsasında qurmalıdırlar.

İkinci paraqraf ***"Dini qurumların əmlakının formalaşmasında dövlətin iştirakının xüsusiyyətləri"*** adlanır. Dövlətin, xüsusilə öz vəzifələrini yerinə yetirmək məqsədi ilə dini konfessiyaları birbaşa və ya dolayısı ilə dəstəkləməsi bəzi mütəxəssislər tərəfindən birmənalı qarşılanmır. Bunu "praqmatik" yanaşma kimi dəyərləndirən və dövlətin dünyəviliyinə mane olmadığını iddia edən fikirlərlə yanaşı[68], dini təşkilatların muxtariyyətinə mane olduğunu əks etdirən yanaşmalar da mövcuddur[69]. Başqa bir müəllif bunu dini təşkilatların dövlətə münasi-

---

[68]bax:Государственное право Российской Федерации. / Ред. Кутафин О.Е. Москва: Юридическая литература, -1996. - 584 с.; Козлова, Е.И., Кутафин, О.Е. Конституционное право России / -Москва: Юрист, 2003. -848 с.; Баглай, М.В. Конституционное право Российской Федерации. – 3-е изд., изм. и доп. / М.Баглай -Москва: НОРМА (НОРМА–ИНФРА-М), 2002, 800 с.

[69]Астэр, И.В., В.Г. Галушко, В.Г. Перспективы партнерства религиозных, государственных и общественных организаций

bətini normal saxlamaq üçün onların arasında bağlanmış gizli müqavilə kimi qiymətləndirir və belə hesab edir ki, bu, dövlətin dinə neytral münasibətinin əsaslarını sarsıdır[70].

Azərbaycanda ötən əsrin 20-ci illərində başlamış sovetləşmə prosesində mənsubiyyətindən asılı olmayaraq bütün dini icmaların əmlakının əksər hissəsi əvəzsiz olaraq onun əlindən alınmışdır. Sovet dövründə dini obyektlərin bir hissəsi məhv edilmiş, digər hissəsi isə dövlətin və ayrı-ayrı hüquqi və ya fiziki şəxslərin xüsusi mülkiyyətinə verilmişdi. Belə bir ağır mirasın nəticələrini aradan götürmək məqsədi ilə dövlətin mülkiyyətində olan dini təyinatlı əmlakın bir hissəsi dərhal öz keçmiş mülkiyyətçilərinə qaytarıldı. Lakin ən müxtəlif səbəblərə görə, o cümlədən dini qurumların institualizasiyasının yenicə başlaması, dini təyinatlı əmlakın xeyli hissəsinin xüsusi mülkiyyətdə olması, yaxud dünya və ya ölkə əhəmiyyətli mədəni irs siyahılarına salınması və digər obyektiv mülahizələrə görə bu cür əmlakın geri qaytarılması mümkün olmamışdır. Maraqlıdır ki, milli qanunvericiliyimizdə dini qurumların əmlak hüququnun bərpasından (qaytarılmasından, restitusiyasından) deyil, onlara dini təyinatlı əmlakın verilməsindən gedir. Əslində restitusiya praktik baxımdan da mümkün deyildir. Ötən 70 il ərzində dini obyektlərin xeyli hissəsi ya dağıdılmış, ya da yarasız hala düşmüşdür. Bu normanın dispozitiv ruhu qeyri-dini təyinatlı əmlakın istifadəyə verilməsində münasibətdə məqsədəuyğun görünür. Bu cür əmlakın dini quruma istifadə üçün verilib-verilməməsində hüquq subyektləri sərbəstdir. Lakin dini təyinatlı əmlakdan öz təyinatı üzrə istifadənin təmin edilməsi baxımından təhlil etdiyimiz normanın imperativ xarakter daşıması daha

---

современной России в социальной работе // Москва: Журнал современные исследования социальных проблем, (электронный научный журнал), 2012, № 4. www.sisp.nkras.ru

[70] Norman, Doe... p.211

məqsədəuyğun olardı.[71] Belə əmlakın istifadə üçün mülkiyyətçilər tərəfindən dini qurumlara verilməsi vəzifəsinin müəyyən edilməsi də, fikrimizcə bu məsələnin tənzimlənməsində tamlıq yaradardı.

Beşinci fəslin ***"Dini qurumların əmlak hüquqlarının bəzi xüsusiyyətləri"*** adlanan üçüncü paraqrafında dini qurumların əmlakının təyinatı, ondan istifadə və həmin əmlaka sərəncam verilməsinin hüquqi problemləri tədqiq edilir. DEAHQ-un bir çox müddəaları dini qurumları əmlak hüquq münasibətlərinin xüsusi subyekti kimi səciyyələndirir. MM və digər normativ hüquqi aktların ümumi normaları ilə yanaşı bu müddəalar həmin qurumların mülki-hüquq münasibətlərində iştirakının özünəməxsus cəhətlərini açmağa imkan verir.

Dini qurumların əmlak hüquqları haqlı olaraq daha çox əşya və öhdəlik hüquqlarının predmetlərinə daxil edilir[72]. Həqiqətən də, qanunvericilik aktları müxtəlif əmlak növlərinin dini qurumlara mülkiyyət hüququ ilə məxsus olmasını təsbit edir və onların həmin əmlaka sahiblik etmələri və ondan istifadə etmələri, habelə ona sərəncam vermələri ilə bağlı məsələləri detallı şəkildə tənzimləyirlər. Bununla belə, son illər mülki hüquq nəzəriyyəsində təsisçilərin (iştirakçıların) yaratdıqları dini qurumlara maya qoyuluşu kimi verdikləri əmlakla bağlı onlarla həmin qurumlar arasında yaranan münasibətləri xarakterizə edən korporativ hüquq münasibətlərinin mövcudluğunu təkid edən mü-

---

[71] Hasanov Simran. The formation of the property of religious organizations in post-soviet states taking into account the world experience". *Universiti of Zulia, Experimental Faculty of science department of human Sciences Jurnal "Opcion"* http://produccioncientificaluz.org/index.php/opcion/article/view/30412/31462

[72] Шахов, М.О., Правовые основы деятельности религиозных объединений в Российской Федераций. / -Москва: Изд-во Сретенского монастыря, -2013, 528 с., с.363

lahizələrə də rast gəlinir. Eyni zamanda, dini qurumları korporativ hüquq münasibətlərinin subyekti hesab edən baxışlar da mövcuddur. Bu, həm də belə bir amillə əsaslandırılır ki, bir çox dini qurumlar üzvlüyə əsaslanırlar və onların təsisçiləri həmin qurumun idarə edilməsində fəal iştirak edirlər.

Dini qurumların mülki-hüquqi statusunu müəyyən edən normativ hüquqi aktların heç birisində onları mülkiyyət hüququnun subyektləri kimi dini qurumların digər növlərindən fərqləndirən leqal xüsusiyyətlər müəyyən edilməmişdir. Qanunvericiliyin və daxili sənədlərin dini qurumların mülkiyyət hüququ subyektliliyi ilə bağlı bu cür bərabər yanaşma prinsipi bəzi sahə mütəxəssislərinin haqlı narahatçılığına səbəb olur[73]. Həqiqətən də, dini qurumların bütün növlərinin eyni həcmli mülkiyyət hüququna malik olmaları ən azından, yerli dini qurumların (dini icmaların) mərkəzi dini qurumun sistemindən "qopması", başqa bir məzhəbə (təriqətə) keçməsi halında ona ianə şəklində verilmiş əmlakın da ianə verənlərin iradəsinin əleyhinə olaraq, başqa şəxslərin sərəncamına keçməsinə, yerli dini qurumların onlara mülkiyyət hüququ ilə məxsus olan əmlakdan nizamnamə məqsədlərinə və dini təyinata zidd məqsədlər üçün istifadə etmələrinə, dini təyinatlı tikililərin (məbəd, məscid, kilsə, sinaqoq və s.) və digər əmlakın yerli dini qurumlar tərəfindən üçüncü şəxslərə özgəninkiləşdirilməsinə gətirib çıxara bilər. Fikrimizcə, burada yarana biləcək arzuolunmaz halların qarşısının alınmasının ən səmərəli üsullarından biri dini icmalarının əmlak (xüsusilə daşınmaz əmlak) məsələlərində bələdiyyələrin fəal iştirakının təmin edilməsidir.

[73] Куницын И.А… дис.с.156; Исламское право. Вопросы экономики и общественных отношений. Т 2. / ред. А.Баешев. -Москва: «Садра», 2017. -400 с., с.34-38; Кирилловых, А.А. Собственность религиозных организаций // Москва. Законодательство и экономика. 2012, №1 с. 43-52.

Dini qurumların mülki-hüquqi statusu ilə bağlı səngimyən mübahisə predmetlərindən biri də onların mülkiyyətində ola bilən əmlakın dairəsi ilə bağlıdır. DEAHQ dini təyinatlı əmlakın dairəsi və onun hüquqi təyinatı ilə bağlı ardıcıl mövqe nümayiş etdirmir. Belə ki, həmin Qanunda, əşya hüququ ilə dini qurumlara məxsus ola bilən əmlakın tərkibində, ən azı formal baxımdan "dini təyinatlı binaların və digər əmlakın", "dinə mənsub binaların və əmlakın", "dini tarix və mədəniyyət abidələrinin", "vəqf olunmayan əmlakın", habelə "ayin təyinatlı əmlakın" adı çəklir. Lakin sənəd onların heç bir əlavə tövsifedici əlamətini müəyyən etmir.

Dini qurumların mülkiyyətində olan əmlakın hüquqi rejimini müəyyən edən normalardan biri də bundan ibarətdir ki, *"dini qurumlara məxsus ayin təyinatlı əmlakdan kreditorların iddiaları üzrə haqq tutula bilməz"* (DEAHQ-un 20-ci maddəsinin 3-cü hissəsi). Lakin nəzərə almaq zəruridir ki, bu məhdudiyyət yalnız dini qurumların mülkiyyətində olan ayin təyinatlı əmlaka aiddir. Bu, həmin əmlakın ümumiyyətlə mülki dövriyyədən çıxarılması anlamına gəlməməlidir. Digər tərəfdən, qanunvericiliklə və məhkəmə təcrübəsi ilə hələ dini təyinatlı əmlakın tərkibinin dəqiq konturları müəyyən edilməmişdir. Əslində bu praktik baxımdan mümkün olan bir şey də deyil. Dini ayinlərin icrası zamanı istifadə edilən əşya və predmetlərin xeyli hissəsi qeyri-dini məqsədlər üçün də yararlı ola bilər.

Tədqiqat işinin sonuncu paraqrafı ***"Kanonik (şəri) normaların dini qurumların əmlak hüquq münasibətlərinə təsiri"*** adlanır və qeyd olunur ki, bu gün mövcud olan hüquq sistemlərinin, xüsusilə əmlak hüquq normalarının təşəkkül tapıb inkişaf etməsində müxtəlif dinlərin və dini cərəyanların, onların müəyyən etdiyi normaların müstəsna təsiri olmuşdur. Dini normalar transmilli xarakter daşıyaraq bir çox hallarda müasir beynəlxalq hüquq normalarına xas xüsusiyyətlərə də malik idilər. Belə ki, islam və xristianlıq kimi dünya dinləri onlarla öl-

kədə tənzimləyici funksiyanı həyata keçirirdilər[74]. Teokratik dövlətlərdə isə bütün dövrlərdə dini normalar həlledici tənzimləmə funksiyalarını həyata keçirmişlər. Təbiidir ki, bu cür təsir dini qurumların mülki-hüquqi statusunun müəyyən edilməsində daha çox hiss edilir. Çünki bu təşkilatların muxtariyyəti onlara şəri və kanonik normaların tətbiqi imkanlarını xeyli genişləndirir. Bu baxımdan həmin hüquq subyektlərinin əmlak hüquq münasibətləri də istisna deyildir.

Tanınmış mütəxəssis L.Syukiyaynenə görə müsəlman hüququnda mülkiyyət hüququnun ümumi müddəaları ilə bağlı normalar o qədər də geniş yer almamışdır[75]. Quranda 100 dəfəyə yaxın tətbiq edilən "əmlak" və onun sinonimləri olan " mal" "mülk" ifadələrnın hüquqi məzmunu ilə əlaqədar da fəqihlər arasında vahid yanaşma yoxdur[76]. Müasir islam hüquqşünasları malın əlamətlərinə ona adi təbii üsulla sahiblik etməyin və ondan istifadə etməyin mümkünlüyünü, onun insan cəmiyyətində dövriyyə etmək qabiliyyətini, habelə mal məhv edildikdə və zərər dəydikdə kompensasiya almaq imkanını əlavə edirlər[77].

Qeyd edildiyi kimi DEAHQ-a uyğun olaraq dini qurumlar *mülkiyyət hüququnun subyekti* kimi mülki dövriyyədə sərbəst iştirak edirlər. Bu baxımdan İslam dininin müəyyən etdiyi ehkamlar kifayət qədər fərqlidir. Müsəlman fəqihlərinin dini mənbələrə əsaslanmış nöqteyi-nəzərlərinə görə "*zaman və məkan baxımından hüdudsuz əmlak sahibi tək qüdrət sahibi Allah-*

---

[74] Варьяс, М.Ю. Церковное право в романо-германской правовой системе. Автореф. дис. кандидата юридических наук. -Москва: 1997, - 30 с., с.15

[75] Сюкияйнен, Л. Мусульманское право собственности: юридическое осмысление религиозных постулатов. // Москва: «Отечественные записки», 2005. № 6, с. 56-64

[76] İslam ensiklopedik lüğət. / tərt.: G. B. Baxşəliyeva, Ə. S. Abbasov; elmi red. G. B. Baxşəliyeva.- Bakı: Elm, 2013.- 656 s., s.358; Məşayixi, Q. İslamda hüquq nəzəriyyəsi. / Q.Məşayixi. Qum, -2002, -592 s., s.467

[77] Сюкияйнен..Л… с. 56-64

*dır ki, Quran əmlak kəlməsini ən çox bu nöqtəyə diqqəti çəkmək üçün istifadə edir"*[78]. *"Həqiqətdə mülk, mütləq olaraq Allaha aiddir. İnsanların malik olduğu isə mülki dövr etmək kimidir. Dünya malı Allahın bəndəsinə verdiyi əmanətdir"*[79]. İslamın müqəddəs kitabının iyirmiyə yaxın ayəsində *"Yerlərin və göylərin bütün əmlakının istisnasız olaraq Allaha məxsus olması" bildirilir"*[80]. Bununla belə, məşhur ilahiyyatçı Yaşar Nuri Öztürkün haqlı olaraq söylədiyi kimi Quranın mülkiyyət hüquq baxımından sosialist ideologiyası mövqeyində durduğunu söyləmək tamamilə yanlışdır və *"Quran müvafiq şərtlərə riayət edilməklə xüsusi mülkiyyətə də icazə vermişdir... Bir dəfə mirasa icazə verilmişdir. Xüsusi mülkiyyətin olmadığı bir quruluşda mirasdan söhbət gedə bilməz"*[81].

Dini qurumların mənsub olduqları konfessiyanın təliminin qaydaları (ehkamları) onların mülkiyyətində olan əmlakın dairəsinə də təsir göstərə bilər. Məsələn, islam dini təşkilatları tərəfindən spirtli içkiləri istehsal edən, haram əti emal edən, qumar oyunları təşkil edən müəssisələrin səhmləri (payları) əldə edilə bilməz, onların mülkiyyətində də bu cür məhsul, yaxud şəriətlə qadağan olunmuş ərzaq malları, habelə publik əhəmiyyət daşıyan əmlak, pasifist dini təşkilatların mülkiyyətində silah-sursat ola bilməz. Bu barədə həmin dini təşkilatların kanonik (şəri) qaydalarında birbaşa göstərişlər nəzərdə tutula bilər.

Dissertasiya işinin ***nəticə*** hissəsində tədqiqat işinin yekunları ümumiləşdirilir, müvafiq qanunvericiliyin və

---

[78] Yaşar Nuri Öztürk. Kuranın temel kavramları 2 cild / Y.Öztürk. İstanbul: "Yeni böyüt", - 2012, - 1300 s., s.92

[79] Topbaş, Osman Nuri. Haqq din İslam. / O.Topbaş. Bakı. -2015, -336 s., s.244

[80] bax: Qurani Kərim və Azərbaycan dilinə mənaca tərcüməsi / -Bakı: "Şərq-Qərb", 2012. - 608 s.

[81] Yaşar Nuri Öztürk. Kuranın temel kavramları 2 cild / Y.Öztürk. İstanbul: "Yeni böyüt", - 2012, - 1300 s., 96

hüquqtətbiq təcrübəsinin təkmilləşdirilməsi istiqamətində əsaslandırılmış, konkret təkliflər irəli sürülür.

Müəllifin dissertasiya mövzusuna həsr edilmiş aşağıdakı məqalə, çıxış və monoqrafiyaları dərc olunmuşdur:

1. “Səhmdar cəmiyyətləri dövlət müəssisələrinin bazar iqtisadiyyatı prinsipləri əsasında idarə olunmasının ən optimal təşkilati-hüquqi forması kimi”. Ümumilli lider Heydər Əliyev-90. “Heydər Əliyev və Azərbaycanda mülkiyyət islahatları” mövzusunda elmi-praktiki konfransın materialları. may 2013. səh. 16-18.

2. “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununun kommentariyası / – Bakı: “Elm və təhsil”, 2014, -272 s..

3. “Qafqaz Müsəlmanları İdarəsinin bölgədə dini tolerantlığın möhkəmləndirilməsi sahəsində vəzifələri”. UNESCO (BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Qafqaz Müsəlmanları İdarəsi. “Dini tolerantlığın möhkəmləndirilməsi” (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar) mövzusunda Beynəlxalq konfransın materialları, noyabr, 2014-cü il. səh.98-102.

4. “Dini qurumların ləğv edilməsi zamanı onların əmlakına sərəncam verilməsinin bəzi hüquqi xüsusiyyətləri” “Beynəlxalq hüquq və inteqrasiya problemləri”, №4, 2015, 124-128

5. “Qafqaz Müsəlmanları İdarəsinin islam maarifləndirməsində rolu: hüquqi aspektlər”- “AMEA, Qafqaz Müsəlmanları İdarəsi. İslam maarifçiliyi və müasir dövr. Beynəlxalq elmi konfransın materialları”. aprel, 2015. s. 115-124

6. “Azərbaycan Respublikasının qanunvericiliyinə görə təhsil müəssisələrində dini təhsilin bəzi problemləri”. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi,

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı, AMEA Fəlsəfə və Hüquq İnstitutu. Azərbaycan Respublikası Konstitusiyasının 20 illiyinə həsr edilmiş "Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları" mövzusunda Y respublika elmi-nəzəri konfransın Materialları, may, 2015. səh.182-186

7. "Dini qurumların dövlət qeydiyyatına alınmasının bəzi hüquqi məsələləri"- "Bakı Dövlət Universitetinin hüquq fakültəsi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin andan olmasının 92-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda Beynəlxalq elmi-praktik konfransın Materialları".II cild, may, 2015, səh. 246-249.

8. Din təhsili və dini təhsil müəssisələri (hüquqi aspektlər) / Bakı: "Elm və təhsil", 2016, -208 s.

9."Юридическое равенство религий и духовных организаций как основное условие толерантности (Азербайджанский опыт)" –«Ученные записки Академии Экономики и Права- Казахстан»-№1 2016. с. 11-14.

10. "Порядок формирования и деятельность органов управления религиозных образований: правовые аспекты". Асоціація українських правників. "Соціологія права" науково-практичний журнал, Ukrayna №1-2, 2016. с. 25-30

11. "Dini qurumların mülki hüquq qabiliyyətinin bəzi xüsusiyyətləri"-Nəqliyyat hüququ. №2-3, 2016, səh. 131-138

12. "Dini qurumların nizamnamələri onların hüquq qabiliyyətini müəyyən edən əsas sənəd kimi" – "Beynəlxalq hüquq və inteqrasiya problemləri". №3, 2016, səh. 20-26

13.Publik hüquqi şəxslər sahələrarası hüquq subyekti kimi. "Qanun" jurnalı, №5, 2016, səh.67-73.

14. “Publik hüquqi şəxslər Azərbaycan Respublikası adından mülki hüquq münasibətlərində iştirakın yeni subyektləri kimi” Ümummilli lider Hedər Əliyevin anadan olmasının 93-cü ildönümünə və AMEA Fəlsəfə və Hüquq İnstitutunun 70 illiyinə həsr olunmuş “Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları” mövzusunda YI respublika elmi-nəzəri konfransın Materialları, may, 2016. səh.153-157.

15.”Publik hüquqi şəxslərin əmlak hüquq münasibətlərində iştirakının bəzi xüsusiyyətləri”- Bakı Dövlət Universitetinin hüquq fakültəsi. Azərbaycan xalqının ümummilli lideri Hedər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev və Azərbaycan da hüquqi dövlət quruculuğu” mövzusunda Beynəlxalq Elmi-praktik konfransın materialları, II cild. İyun, 2016, səh.245-249

16. “Aidiyyəti şəxslərlə əqdlər haqqında yeni normalar maraqların balanslaşdırılmasında vacib addım kimi”- Qanun” jurnalı, №7, 2016.səh. 90-97

17.”Təsərrüfat cəmiyyətlərinin ümumi yığıncağının çağırılmasının bəzi hüquqi xüsusiyyətləri”. “Qanun” jurnalı, №8, 2016, səh.71-78.

18. “Təsərrüfat cəmiyyətlərinin iştirakçılarının hüquqlarının həyata keçirilməsində ümumi yığıncaqların rolu”. “Qanun” jurnalı, №9, 2016. səh.78-85

19. “Publik hüquqi şəxslərin dövlət qeydiyyatının xüsusiyyətləri”- “Qanun” jurnalı, №10, 2016, səh.81-89.

20. “Dividendlərin elan edilməsi və ödənilməsi səhmdar cəmiyyətinin hüququ yoxsa vəzifəsidir?”- Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, AMEA Hüquq və İnsan Haqları İnstitutu, Qara Dəniz və Xəzər regionu ölkələrinin Hüquqşünaslar assosiasiyası. Ümummilli lider

Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş dəyərlərin müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda Elmi-nəzəri konfransın materialları, may, 2017-ci il, səh.62-72

21. "Təsərrüfat cəmiyyətlərində daxili auditin təşkilinin bəzi hüquqi problemləri"- "Bakı Dövlət Universitetinin hüquq fakültəsi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin andan olmasının 94-cü ildönümünə həsr olunmuş "Müasir dövrdə Azərbaycan Respublikasında hüquq elminin və təhsilinin əsas inkişaf tendensiyalarını" mövzusunda Beynəlxalq elmi-praktik konfransın Materialları", may, 2017, səh. 309-314.

22. Korporativ hüquq. Dərslik / Bakı: - "Elm və təhsil", - 2018. - 330 s.

23. "The formation of the property of religious organizations in post-soviet states taking into account the world experience". Universiti of Zulia, Experimental Faculity of science department of human Sciences Jurnal "Opcion" Vol.34, №87-2, (2018). http://produccioncientificaluz.org/index.php/opcion/article/view/30412/31462

24. "Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsi haqqında qanunvericiliyin formalaşması mərhələləri". "Polis Akademiyasının Elmi xəbərləri", Elmi-hüquqi jurnal, №1-2, 2018, səh.158-165

25. "Dini qurumların mülkiyyət hüququnun bəzi məsələləri"-Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, AMEA-nın Hüquq və İnsan Haqları institutu, Qara Dəniz və Xəzər regionu ölkələrinin Hüquqşünaslar assosiasiyası. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "XXI-əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və

praktiki yanaşmalar" mövzusunda elmi-nəzəri konfransın materialları, may, 2018, səh.114-122

26. "Dini qurumların mülki hüquqi vəziyyətini tənzimləyən normativ hüquqi aktların bəzi xüsusiyyətləri"- Azərbaycan Memarlıq və İnşaat Universiteti. Ümummilli lideri Heydər Əliyevin andan olmasının 95-ci ildönümünə həsr edilmiş "Milli-mənəvi dəyərlər: ənənə və müasirlik" mövzusunda Beynəlxalq elmi konfransın Materialları", may, 2018, səh. 333-340

27. "Dini qurumların mülki-hüquqi statusunun bəzi məsələləri"-AMEA Fəlsəfə İnstitutu. "Multikulturalizmin Azərbaycan modeli:fəlsəfi, sosioloji və hüquqi baxış. Beynəlxalq elmi konfransın materialları", iyun 2018, səh.335-343

28. "The role of Religious entities in formation of Tolerant and Multicultural Environment: Legal aspects" //The İnternatıonal symposıum on the medıterranean-sılk road studıes / Kyrenia, Northern Cyprus, 17-19 Yanuary, 2020. Journal of Science and Innovative Technologies p.28-29 : www.ejsr.org

29. «Некоторые правовые проблемы равенства религиозных образований перед законом: сравнительный анализ» / Киев, «Европейские перспективы»-научно-практический журнал. № 1, 2020. с. 139-147

30. «Некоторые историко-правовые вопросы регулятивных и судебных функции мусульманского духовенства в разбирательстве брачно-семейных отношений на Южном Кавказе во второй половине XIX века» // «EurasiaScience» XXVII Международная научно-практическая конференция 15 февраля 2020. Научно-издательский центр «Актуальность.РФ» с.288-294/ http://xn--80aa3afkgvdfe5he.xn--p1ai/ES-27_originalmaket_N.pdf

31. Некоторые историко-правовые проблемы институализации исламских духовных структур в Южном Кавказе в первой половине XIX века/ Bakı: "Qanun" jurnalı. №2, 2020, s.3-11

32. Некоторые правовые особенности проекта «Положения о мусульманском духовенстве Алиева учения» (1849 г.) подготовленного Н.В.Ханыковым / Bakı: "Qanun" jurnalı. №3, 2020, s.3-9

Dissertasiyanın müdafiəsi 29 dekabr 2023-cü il tarixində saat 15:00 Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən BED 2.45 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Milli Aviasiya Akademiyası, AZ1045, Bakı, Binə qəsəbəsi, Mərdəkan pr., 30

Dissertasiya ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat _29 noyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.11.2023-cü il
Kağızın formatı: A5
Həcm: 91682
(işarə sayı)
Tiraj: 100